

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Sayı: 3 (24.385)

21 yanvar 2024-cü il, bazar

www.serqqapisi.gov.az

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti


# İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 20 Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət ediblər




Qanlı 20 Yanvar faciəsindən 34 il keçir. Sovet imperiyasının Bakıda törətdiyi qanlı qırğının 34-cü ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də – Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanını ziyarət ediblər.

Dövlətimizin başçısı ölkəmizin azadlığı uğrunda həlak olanların xatirəsini yad etdi.

Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

# Şanlı tariximizin dik duruşu, sınmayan mübarizə ruhu və dirçəliş carçısı

## 20 Yanvar



Üstündən 34 il keçməsinə baxmayaraq, xalq azadlığımızın ilk qaranquşları olan 20 Yanvar şəhidlərini ehtiramla yad edir, müstəqilliyimizin ilk carçılarını fəxrlə anır, bütün yarım qalan həyat hekayələrinə, arzulara baxmayaraq, şəhidlərimizin ruhu şaddır deyə düşünürəm. Çünki onların müdhiş cəsarəti, gücü və milli birliyindən yaranmış istiqlaliyyət eşqi sanki gələcək nəsillərin üzərinə üfürülmüşdü və bütün proseslərin mərkəzində onların sələfləri – yeni bir tarix yazan qəhrəman şəhidlərimiz, eyni zamanda xalqımız və onun güclü lideri dayanır. İndi Azərbaycan öz ərazi bütövlüyünü tam bərpa etmiş, müstəqilliyini yeni sütunlarla bərkitmiş, güclənərək qüdrətini birə-beş artırmış dövlət kimi ən yüksək inkişaf dövrünü yaşayır. Şuşa, Xankəndi, Ağdam, Xocalı, Laçın, Kəlbəcər, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl və ən nəhayət, adını çəkəndə ürəyimizi dağlayan Xocalı kimi neçə yurdyuvamız vüsalına qovuşub. Kütləvi qırğın görmüş, ağır faciə yaşamış və dağıdılmış bütün ərazilərimiz dirçəldilir, əvvəlki gözəlliyinə qovuşmaqla bərabər həm də müasir libasa bürünür. Buna görə də biz azərbaycanlılar haqlı olaraq ədalət təntənəsində, zəfər ucalığında bir mövqedəyik və buradan göy üzünə baxarkən daha əvvəlkitək mələklərin ahını eşitmirik, şəhid ruhunun nikbinliyini duyuruq. Daha qara buludlara mənə vermirik, yurdumuza gümrahlıq verən günəşin şəfəqləri ilə isinib, firavan, təhlükəsiz bir mühitdə yaşayır, güclü dövlət və güclü ordu ilə mühafizə olunuruq.

Bütün bunlarla yanaşı, biz heç vaxt tariximizi, tarixin əsas qəhrəmanlarını unutmuruq və unutmayacağıq da. Bizim xalq olaraq formalaşmağımızda, bugünkü və gələcək taleyimizin kökündə tariximiz yaşayır. Yanvar hadisələrinin dəyəri, faciə qurbanlarının xatirəsi və mirası qəlbimizdəki, zehnimizdəki yeri ilə əbədiyyən bizimlədir. 1990-cı ilin 20 yanvarında baş verənlər azərbaycanlıların milli mənliyinə, milli azadlıq ruhuna təcavüz cəhdi idi. Lakin Azərbaycan xalqı öz qürurunu itirmədi, onun iradəsi qırılmadı. Biz 20 Yanvar tarixini milli matəm, hüzn günü kimi yox, milli iftixar hissi ilə yad edirik. SSRİ rəhbərliyinin azərbaycanlılara qarşı törətdiyi bu qanlı cinayət Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə əzmini qıra bilmədi. Əksinə, xalq daha sıx birləşdi, onun mübarizliyi daha da artdı. Həmin gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya bəyan etdi.

Həmin faciəli günlərdə ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. 20 Yanvar faciəsi cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirdi. Məhz Vətən övladlarının qanı bahasına uzun illərdən bəri arzusunda olduğumuz müstəqilliyə qovuşduq və ölkəmiz suverenlik əldə etdi.

O ağır günlərdə Azərbaycan xalqına qarşı soyqırımı aktının həyata keçirilməsi ilə bağlı ilk reaksiya Ulu Öndər Heydər Əliyevin simasında cəsarətlə bütün dünyaya bəyan edildi. Siyasi fəaliyyəti baxımından riskli olmasına baxmayaraq, Ulu Öndər vətəndaş qeyrəti və həqiqi vətənpərvərlikdən irəli gələn cəsarətli bəyanatı ilə dünya azərbaycanlılarını ayağa qaldırdı, xalqın siyasi iradəsini ifadə etdi. Hadisələrin ertəsi günü həyatını təhlükəyə ataraq Moskvada Azərbaycanın Daimi Nümayəndəliyinə gedən dahi azərbaycanlı bu terrora, hərbi təcavüzə qarşı öz etiraz səsini ucaltdı.

Ardı 4-cü səhifədə

**Azərbaycan xalqının Ümummilli Lideri Heydər ƏLİYEV:**

"20 Yanvar gününü xatırlayarkən hər birimiz, eyni zamanda böyük iftixar hissi keçiririk. Çünki xalqımız həmin təcavüz qarşısında özünün əyilməzliyini, sarsılmazlığını bütün dünyaya sübut etdi. Şəhidi olan xalq qəhrəman xalqdır. Biz şəhidlərimizin qəm-qüssəsini çəkirik, ancaq onların şəhidliyə getməsi ilə fəxr edirik. Çünki onlar Vətən, ana torpaq, millət, Azərbaycan yolunda həlak olublar."


Naxçıvanlılar düşmən qarşısında əyilmədilər 2

"Ziraat Bank Azərbaycan"ın Naxçıvanda filialı fəaliyyətə başlayacaq 3

Naxçıvanda 20 Yanvar faciəsinin 34-cü ildönümü yad edilib 3

Qəhrəman xalqın müzəffər Ordusu 7

Bu qar o qardan deyil 11

# Naxçıvanlılar düşmən qarşısında əyilmədilər

*Naxçıvan deyəndə məğlubedilməzliyi, qəhrəmanlığı, yurd sevgisi, vətənsevərliyi ilə özünü təsdiq edən, Oğuz türkünün şanlı tarixini özündə yaşadan tarixi bir yurd gəlir gözlər önünə. O Naxçıvan ki hər daşında ox nişanı, şəhid qanı var. O Naxçıvan ki dəfələrlə düşmən hücumuna sinə gərib, yüzlərlə övladını Vətən yolunda qurban verib, amma mətanətini itirməyib. Məğrur Əlincəsi, tarixə naxış salan Əcəmisi, dünyaya dövlətçilik dərsi verən Atabəyləri ilə anası Azərbaycanın döyünən ürəyi, tarixboyu türk-islam aləminin alınmaz qalası, tarixin uzun bir dövründə Azərbaycan dövlətçiliyinin əməl və yaddaş mərkəzi olub. Bu şanlı missiya bu gün də davam etməkdədir.*



**Ulu Öndər Heydər ƏLİYEV:**
***"Azərbaycana, o cümlədən Naxçıvana əsrlərboyu dəfələrlə yadellilərin basqını olmuşdur, müharibələr, döyüşlər zamanı insanlar qırılmışdır. Naxçıvan dəfələrlə tamamilə məhv olub külə dönmüş, amma insanlar yenə də bu külün içindən qalxıb Naxçıvanı yaşatmışlar"***

Elə məhz buna görədir ki, bu müqəddəs Nuh məkanının dəyəri düşmənlərimizə də əyan olub. Bu səbəbdəndir ki, yüz illər boyu bu torpaqlara sahiblənməyə çalışıblar, ancaq acı məğlubiyyətdən başqa heç nə əldə edə bilməyiblər. Doğma yurdumuz tarixboyu torpağımıza göz dikənlərə qeyrətdən, Vətən sevgisindən, torpaq təəssübkeşliyindən ucaldılmış bir sədd olub. Çünki bu yurdun hər daşı sevgidən, Vətən məhəbbətindən, palçığı şəhid qanından yoğrulub. Odur ki, Qədim Nuh yurdunun tarixinin hər səhifəsində



Sədərək döyüşləri – 1990



min-min salnamə var. Bu salnamələr bir yerə toplananda isə qədim diyar haqqında ümumi bir fikir formalaşır: Bura VƏTƏNDİR! Bura Nəqşicahandır! O Nəqşicahan ki uzun illər boyu buradan yolu düşən dosta qürur, düşmənə gözdağı, tarixboyu Azərbaycanın yenilməz, ərən qalası, vətənsevərliyi, dönməzliyi ilə nümunə olub.

***Tarixin qəhrəman, vətənpərvər Naxçıvanı***

Tarixin bütün dövrlərində öz cəsarəti, Vətən sevgisi ilə seçilən naxçıvanlılar dəfələrlə qədim yurda qarşı olan hücumlara sinə gərib, onu anası Azərbaycandan ayırmaq istəyənlərlə mətinliklə mübarizə aparıb, qalib gəliblər. Şərqdə ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı illərdə mənfur, məkrli qonşusu ermənilərin ərazi iddiaları ilə üz-üzə gələn naxçıvanlılar öz qəhrəmanlıq salnaməsində daha bir səhifə açdılar. Həmin vaxtlar Azərbaycan Xalq Cümhuriyyəti düşdüyü çətin vəziyyətlə əlaqədar olaraq Naxçıvana lazım olan köməyi göstərə bilmirdi. Naxçıvan əhalisi, yerli ziyalılar erməni daşnaklarına qarşı inadla mübarizə apardı və mənfur düşmən öz arzusunu reallaşdıra bilmədi. Erməni quldurları kəndlərimizə hücumlar edib tarixdə görülməmiş soyqırımlar törətsələr də, sakinlər öz canları bahasına onları qovub yurdumuzdan çıxardılar. Həmin illərdə naxçıvanlıların qəhrəmanlığı haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin nümayəndəsi Nəsib bəy Yusifbəyli parlamentdəki çıxışında deyirdi: *"İgid naxçıvanlılar, şərurlular bütün çətinliklərə özləri qalib gəldilər, onlar həyatlarını, ailələrinin şərəfini, var-dövlətlərini riskə qoyaraq doğma torpağa, Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra naxçıvanlıların qanuni hüquqlarını danmayacaqlar".*

Naxçıvanlıların qəhrəmanlığını mənfur düşmənin özü belə etiraf edirdi. Şərur, Naxçıvan kimi mühüm yerlərdə öz hakimiyyətimizi, hətta silah gücünə qura bilmədik, məğlub olub geri çəkildik", – deyən Ermənistanın birinci baş naziri O.Kaçaznuni bu sözlərinə görə hələ də erməni ictimaiyyəti tərəfindən qınanır. Ən çətin dövrlərindən birini 1918-ci ildə yaşayan Naxçıvan sovet əsarətinə keçəndən sonra torpaqları keçmiş sovet rejiminin rəhbərlərinin əli ilə hissə-hissə düşmənə verilib. Azərbaycandan coğrafi cəhətdən ayrılsa da, Naxçıvan yenə də öz ana Vətəninin alınmaz qalası olaraq qaldı.

***Atalardan oğullara qalan ərməğan: sıx birlik, torpaq təəssübkeşliyi***

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan çətin sınaqlardan birini də keçən əsrin 80-ci illərində yaşadı. Sovetlər ittifaqının son illəri isə naxçıvanlıların yaddaşına çətinliklər, məhrumiyyətlər, qanlı qırğınlar dövrü kimi yazılmaqla bərabər müstəqillik, azadlıq dövrü kimi də qaldı. Ötən əsrin 90-cı illərinin əvvəlləri bir tərəfdən blokada, bir tərəfdən də mənfur qonşumuz Ermənistanın ardı-arası kəsilməyən hücumları Naxçıvanda çox təhlükəli, daha dəqiq desək, qorxunc bir vəziyyət yaradırdı. Həmin çətin günlərdə belə müstəqillik arzusundan əl çəkməyən və "Zaman yetişib, artıq müstəqil, azad olmaq vaxtı çatıb", – deyən 20 mindən çox sakin Naxçıvan şəhərində muxtariyyət parlamentinin qarşısında muxtar respublika Ali Sovetinin toplanmasını tələb edirdi. Fövqəladə sessiya 19 yanvar 1990-cı il axşam saatlarında muxtariyyətin Konstitusiyasının 81-ci maddəsinə əsaslanaraq SSRİ-nin tərkibindən ayrılmaq qərarı verdi. Naxçıvandan – imperiyanın periferiyasında yerləşən kiçik bir bölgədən gələn bu qərar sovetlərin əcəl zəngi oldu.

Bu həmin vaxtlar idi ki, sərhədlərimizdə döyüş gedirdi, Azərbaycanın ozamankı rəhbərliyi Naxçıvana "kor bağırsaq" deyir, onu kəsib ana Vətənindən ayırmaq istəyirdi. Bu o vaxt idi ki, hər yerdən ümidi üzülən yerli əhali günün çoxunu çörək növbələrində keçirirdi. Bu həmin vaxtlar idi ki, sərhədlərimizdə döyüş gedirdi, Sədərək kəndi düşmən hücumuna məruz qalırdı. Belə bir dəhşətli vəziyyət Ümummilli Liderimiz Heydər Əliyev yenidən hakimiyyətə qayıdanadək davam etdi.

Ulu Tanrı Naxçıvanın və naxçıvanlıların ən ağır günündə xalqın dahi oğlunu xilaskar kimi göndərdi. Dahi rəhbərin Naxçıvanda olması camaatı yurd-yuvalarından didərgin düşməyə qoymadı. Sakinlər güllə yağışı altında qalsa da, evini tərk etmədi, düşmənin önündə dayandı, yurdlarını qorudular. O vaxtlar hər kəs – yaşından sənətindən, vəziyyətindən, cəmiyyətdə tutduğu mövqeyindən asılı olmayaraq, Vətənə övladlıq borcunu yerinə yetirməyə çalışırdı. Sədərək kəndində şiddətli döyüşlər gedirdi. Səngərdəki oğullar ölümün gözünə dik baxır və öz canları bahasına Vətən torpağını qoruyurdular. Düşmənin atdığı "Qrad"lar, "Alazan"lar torpağımıza yağış kimi yağsa da, doğma yurdunu, ev-eşiyini heç kim tərk etmədi.

İşğalçı Ermənistan 1990-cı illərdə Naxçıvanda aldığı cavabı hələ də unutmayıb. Ulu Öndər Heydər Əliyevin ətrafında birləşən əhalinin sıx birliyi, Vətən təəssübkeşliyi, yurda bağlılığı yurdumuzu qorudu. Bu, xalqımızın dəyanəti, vətənsevərliyi, torpaq, yurd sevgisinin nəticəsi idi. Həmin illərdə bunu təkcə mənfur ermənilər yox, bütün dünya gördü. Dahi rəhbərin Naxçıvana gəlişi yurdumuzu işğal təhlükəsindən qorudu.

Ulu Öndər Heydər Əliyev deyib: ***"Naxçıvanın tarixi təkcə muxtar respublikanın yaranmasından başlanmır. Naxçıvan Azərbaycanın ən qədim diyarlarından biridir, çox zəngin tarixə malik olan Azərbaycanın bir hissəsidir, 3500 il tarixi olan Azərbaycan torpağıdır. Bu tarix çox zəngin hadisələrlə doludur. Bunlar hamısı Azərbaycan üçün Naxçıvanın nə qədər qiymətli olduğunu həmişə göstərib, göstərir və gələcəkdə də göstərəcəkdir... Azərbaycana, o cümlədən Naxçıvana əsrlərboyu dəfələrlə yadellilərin basqını olmuşdur, müharibələr, döyüşlər zamanı insanlar qırılmışdır. Naxçıvan dəfələrlə tamamilə məhv olub külə dönmüş, amma insanlar yenə də bu külün içindən qalxıb Naxçıvanı yaşatmışlar".***

***Yurda qürur, dağlara vüqar oğullar***

Tarixin bütün dövrlərində döyüşkənliyi, cəsarəti, igidliyi və qəhrəmanlığı ilə tanınan naxçıvanlılar həmişə öz sözünü deyiblər. Əlincənin alınmazlığı, Babəkin rəşadəti, Naxçıvanskilərin, Kəngərlilərin döyüş ruhu həmişə dillərə dastan olub. Vətən müharibəsi başlayan kimi Naxçıvanın qəhrəman övladları da torpaqlarımızın işğaldan azad olunması üçün müqəddəs savaşa atılıblar. Onlar atalarından, ulu babalarından qalan əmanəti öz canları bahasına qoruyub tarixin səhifələrinə öz adlarını qızıl hərflərlə yazdılar. Öz silahdaşları ilə bir olub, düşmənin başına yumruq kimi çaxıb, zəfəri Şuşada tamamlayıb "dəmir yumruğ"un bir parçası oldular. Bir aydan çox davam edən Vətən müharibəsində boygöstərən, dastan yazan igidlərimiz qəhrəman kimi öz yurduna qayıtdı. Kimi bayraq çiynində, kimisi bayrağa sarınıb çiyinlərdə gəldi Naxçıvana. Onlar atalarından yadigar qalan qəhrəmanlıq və vətənpərvərliklə döyüşlərə qatılıb ad-san qazandılar. Ölkə başçısının dediyi kimi: ***"Naxçıvanlılar İkinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər... Başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər".***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının yüzilliyinin qeyd edilməsi haqqında imzaladığı Sərəncamda deyilir: "*Strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etmişdir. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində Naxçıvanın uzun müddət tam təcrid və ağır blokada şəraitində olduğu vaxtlarda belə qəhrəman əhalisi bu qədim Azərbaycan torpağını işğal təhlükəsindən qurtarmış, Azərbaycanın müstəqilliyi uğrunda atdığı cəsarətli addımlarla milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə fədakarlıq nümayiş etdirmişdir. 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Naxçıvanın igid övladları şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazmışlar*".

*Bir insan, Vətənini sevən bir vətəndaş üçün onun torpağının hər daşı-qayası, hər addımı əzizdir. Dünyada minlərlə millət var, amma çox azının Vətəni və dövləti var. Biz də belə xoşbəxt xalqlardanıq ki, bizim Azərbaycan kimi gözəl Vətənimiz, Naxçıvan kimi dünyanın naxışı olan yurdumuz var. Nəqşicahanımızın, bəlkə, iqlimi çox sərtdir, amma insanların ürəyinin istisi bu soyuq, şaxtalı qışı bahara, igid oğullarımızın əsrlərdir, davam edən igidliyi isti yayı sərin yaz gününə çevirir. Biz bu Vətəni, bu yurdu canımızdan belə çox sevirik. Torpaq, yurd, Vətən sevgisi bizə bu Vətənin hər qarışını canından əziz bilən atalarımızdan yadigar qalıb. Və bu miras yüz illər keçsə də, davam edəcək. Yaşı min illərlə ölçülən Naxçıvanın, naxçıvanlıların qəhrəmanlığı tarixin qızıl səhifələrində gələcək nəsillərə yadigar qalacaq.*

**Ramiyyə ƏKBƏROVA**

# Naxçıvanda 20 Yanvar faciəsinin 34-cü ildönümü yad edilib










Yanvarın 20-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri, "Naxçıvan Qaziləri" İctimai Birliyinin üzvləri və yüzlərlə sakin Qanlı Yanvar faciəsində həlak olanların və şəhidlərin əziz xatirəsini yad etmək üçün Naxçıvan şəhərindəki Şəhidlər xiyabanına gəliblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra səlahiyyətli nümayəndə, dövlət və hökumət nümayəndələri şəhidlərin məzarlarını ziyarət edib, hər birinin üzərinə tər qərənfillər düzüblər.

Səlahiyyətli nümayəndə şəhidlərin ailə üzvləri ilə görüşüb, ehtiramını ifadə edib.

Ziyarətçilər xiyabandakı Ana abidəsini və 1918-1920-ci illərdə erməni daşnakları ilə mübarizədə Naxçıvanın köməyinə gələn qardaş türk ordusunun şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək güllər qoyublar.









## "Ziraat Bank Azərbaycan"ın Naxçıvanda filialı fəaliyyətə başlayacaq



Yanvarın 18-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli "Ziraat Bank Azərbaycan" ASC İdarə Heyətinin sədri Selçuk Demirin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə "Ziraat Bank Azərbaycan"ın Naxçıvan filialının yaradılması barədə fikir mübadiləsi aparılıb.

Məlumat verilib ki, 160 illik tarixə malik və dünyanın 17 ölkəsində fəaliyyət göstərən Ziraat Maliyyə Qrupunun üzvü olan "Ziraat Bank Azərbaycan" müştərilərə beynəlxalq ticarətdə istifadə edilən bank məhsul və xidmətləri təqdim edir. Bankın korporativ və pərakəndə bankçılıq sahəsində məhsul və xidmətlərinin qısa zamanda rəqəmsal satış və xidmət platformaları üzərindən əldə olunması da mümkündür.

Bildirilib ki, Naxçıvanda yeni filialın yaradılmasında məqsəd yerli sahibkarlara və investorlara keyfiyyətli, operativ bank xidmətləri göstərməkdir. Burada həm hüquqi, həm də fiziki şəxslərə geniş çeşidli bank xidmətləri təqdim olunacaq.

Görüşdə Naxçıvanda fəaliyyət göstərən sahibkarlar, xüsusilə inşaat sektoru üzrə fəaliyyət göstərən iş adamları üçün biznes kreditlərinin əlçatanlığının təmin olunması perspektivləri müzakirə edilib.

Görüşdə Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya iştirak edib.

**"Şərq qapısı"**

## Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin yeni strukturunun təsdiq edilməsi və "Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2019-cu il 8 noyabr tarixli 182-V FR nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin strukturu" təsdiq edilsin (əlavə olunur).

2. "Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2019-cu il 8 noyabr tarixli 182-V FR nömrəli Fərmanında aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2-ci hissə ləğv edilsin;

2.2. 2-1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2-1. Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin işçilərinin say həddi cəmi 674 ştat vahidi olmaqla, aşağıdakı kimi müəyyən edilsin:

2-1.1. Aparat üzrə 56 ştat vahidi;

2-1.2. Magistral qaz kəmərlərinin və qaz paylayıcı stansiyaların istismarı idarəsi üzrə 113 ştat vahidi;

2-1.3. Texnoloji nəqliyyat idarəsi üzrə 26 ştat vahidi;

2-1.4. Təmir, tikinti və quraşdırma idarəsi üzrə 70 ştat vahidi;

2-1.5. Regional qaz istismar idarələri üzrə 409 ştat vahidi.";

2.3. həmin Fərmanla təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidməti haqqında Əsasnamə" üzrə:

2.3.1. 15.4-cü bəndə "əməkhaqqı fondu" sözlərindən sonra "(ona əlavələr)" sözləri əlavə edilsin;

2.3.2. 16-cı–22-ci bəndlər ləğv edilsin.

3. Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidməti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərman 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 18 yanvar 2024-cü il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 18 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir***

**Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin**

**S T R U K T U R U**

1. Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin Aparatı (şöbələr və sektorlar).
2. Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin Magistral qaz kəmərlərinin və qaz paylayıcı stansiyaların istismarı idarəsi.
3. Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin Texnoloji nəqliyyat idarəsi.
4. Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin Təmir, tikinti və quraşdırma idarəsi.
5. Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin Regional qaz istismar idarələri.

## Naxçıvan Muxtar Respublikası səhiyyə işçilərinin təltif edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin 100 illiyi münasibətilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasında səhiyyə sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə Naxçıvan Muxtar Respublikasının fəxri adları verilsin:

**"Əməkdar həkim"**

Babayev Vaqif Baba oğlu
Cəfərov Fuad Heydər oğlu
Hüseynov Bəxtiyar Məmmədhüseyn oğlu
Rəhimova Tünzalə Əbülfəz qızı

**"Əməkdar tibb işçisi"**

Cəfərova Solmaz Musa qızı
Kazımova Ülkər İbrahim qızı
Novruzova Səba Nurəddin qızı
Piriyeva Sevda Fətulla qızı.

2. Naxçıvan Muxtar Respublikasında səhiyyənin inkişafında uzunmüddətli fəaliyyətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Rəşadətli əməyə görə" nişanı ilə**

Dünyamalıyeva Aysel Məmməd qızı
Əsgərov Vilayət Abbas oğlu
Həsənova Cəmilə Əbilqasım qızı.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 17 yanvar 2024-cü il*



# Yanvarın 20-ci günü



## Həmin gün xalqın birliyi və milli ləyaqət hissi top-tüfəngə qalib gəldi

Tarixboyu qəhrəmanlıq, şücaət, vətənpərvərlik salnaməsi yazmış böyük bir xalqın haqsızlığa, ədalətsizliyə boyun əymədən zülmə qarşı üsyanıdır yanvarın 20-ci günü. Düz 30 il idi, əlimizdəki qərənfil kimi boynumuz bükük, matəmli, hüznlü şəkildə üz tuturduq sinəsini düşmən güllələrinə sipər edən İdris Məmmədov, Mirəsgər Seyidov, Bahadur Abbasov kimi onlarla şəhidimizin uyuduğu Naxçıvan şəhərindəki müqəddəs məkana.

Həmin gün sanki qəzəbi tuturdu sinəsi qara buludlarla dolan göy üzünün də yerə. Əlimizi, ayağımızı donduran şaxta-boranı birtəhər isitməyə çalışsaq da, qəlbimizdəki çovğunu, təlatümü ovutmaq üçün heç nə yetməzdi imdadımıza. Nə dilə gətirməklə, nə yazmaqla, nə də kətan üzərinə köçürməklə izah etmək mümkün olurdu könlümüzdəki illərin ədalətsiz hökmünə qarşı çıxan hayqırtını. Bax, beləcə, böyükdən-kiçiyə hər birimiz hüznlə keçirdik şəhid məzarları önündən. Gözümüzün ucu ilə, ürkək halda baxırdıq pərişanlıqla dolu, donuq baxışlı məzarlara. Onların bir andaca dilə gəlib “Bizim qanımız niyə yerdə qalıb? Zəfər müjdəsini nə vaxt alacağıq sizdən? Haqq-ədaləti bərpa edin, axı sizin də damarınızda bizimki kimi Vətən sevgisi ilə coşub-daşır al qan” kimi sual dolu cümlələrlə xitab edəcəyindən çəkinirdik sanki...

Ziyarətdən sonra evə dönəndə ağlımıza gələn bu qara fikirli sualları yolboyu tərbiyə aşıladığımız övladlarımızdan eşidəndə isə titrəyirdi dil-dodağımız. Xalqımıza yaşadılan ağrı-acıları sıxıla-sıxıla izah edir, hakim olmağa çalışırdıq qəzəblə dolu göz yaşlarımıza. Lakin ölkəmizə müstəqil həyat bəxş edən dahi siyasətçinin siyasi xəttinə sadiqliklə ilahi ədalətin gec-tez təcəlla edəcəyinə böyük idi inamımız, ümidimiz. Səbir kasası dolub-daşan xalqımızda tam əminlik hissləri yaradırdı son illərdə daha da güclənən dövlətimiz, qüdrətlənən ordumuz. Artan qələbələr tezliklə böyük Zəfər müjdəsinin gələcəyini də gözlənilən etmişdi artıq. Və belə də oldu. 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən həm hərbi, həm siyasi yöndəki haqq-ədalət savaşımız böyük Qələbə, ötən il sentyabrın 19-20-dəki lokal xarakterli antiterror tədbirlərimiz ərazi bütövlüyümüzün, suverenliyimizin tam təmini ilə nəticələndi...

2024-cü ilin 20 yanvar günü. 34-cü dəfə üz tuturuq bu müqəddəs məkana. Artıq 4-cü ildir, tam fərqli aurada, başqa şəkildə başımız dik, ürəyimiz rahat, böyük Qələbə, zəfər nidalı addımlarla gedirik şəhidlərimizin ziyarətinə. Bir neçə ildönümüdür sanki sərgiyib göyün də yerə olan qəzəbi, azalıbdı qılınc kimi kəsən havanın şaxta-sazağı, mülayim, həlimli olub, ürəyi rahatlıq tapıb elə bil ana təbiətin də... Budur, böyükdən-kiçiyə hər kəs böyük qürurla, məğrurluqla keçir məzarların önündən. Ərazi bütövlüyü, suverenliyi tam təmin olunmuş qüdrətli ölkənin, qalib xalqın nümayəndəsi kimi. Sinəmizdəki sözləri daha əvvəlkitək gizləmirik, uca səslə söyləyirik: əziz şəhidlərimiz qanınız yerdə qalmadı, alındı qisasınız, yığıldı yollardan həsrətli gözləriniz, pərişanlığınız bitdi artıq, şükürlər olsun. Rahat uyuyun, ruhunuz şadlıq tapsın, ey məğrur xalqın məğrur oğulları! Vətən bağı al-əlvana bürünübdür, mələhətli səsi gəlir Xarıbülbülün, şeirləri səslənir Molla Pənah Vaqifin, Xurşidbanu Natəvanın, yurd həsrəti ilə deyil, vüsal mahnılarının sədaları altında çağlayır İsa bulağı, igid ər-ərəni, ismətli qız-gəlini mehman eyləyir qoynuna Cıdır düzü. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qalib ordunun məğrur əsgər-zabitlərinin paradına, “Qarabağ” futbol klubunun yarışlarına ev sahibliyi edir qədim torpağımız Xankəndi şəhəri. Soydaşlarını, yurddaşlarını qucağında qarşılamağa hazırlaşır Xocalı rayonu, Xankəndi şəhəri, Kərkicahan qəsəbəsi, Malıbəyli, Turşsu kəndləri...

Əziz şəhidlərimiz, qəhrəmanlıq dolu şəninizə nə söyləsək, nə yazsaq, azdır, bilirəm. Siz tökülən al qanlarınız, mübarizliyiniz, şücaət dolu döyüş yolunuzla bizə müqəddəs həyat amalını – hər şeyin Vətən üçün olmasını aşıladınız, müstəqil Azərbaycanın bütövlüyü, suverenliyi yolunda dönməzliyi öyrətdiniz, haqqınız ödənməz. Mətin, vətənpərvərlik dolu məktəbinizi öyrənə-öyrənə, çalışıb-vuruşaraq qalib çıxa bildik bu günlərə. Ağrı-acılarla dolu anlar yaşadıq içimizdə. Hiss etdirmədik bir kimsəyə. İstəmədik dostumuz ağlayıb, düşmənimiz sevinsin halımıza. Ürəyimizdəki qəzəb dolu hisslər döndü məğrurluğa. Bircə an belə olsun unutmadıq, unutdurmadıq sizin üzərimizdəki haqqınızı. Qisasınızı almaq naminə bütün cəbhələrdə haqlı savaşımızı, mübarizəmizi apardıq yorulmadan, usanmadan gecəgündüz.

Qanınızın düşdüyü Vətən torpaqlarının hər qarışını qüdrətli dövlətimiz gülüstana çevirdi, gülə-baran olunan el-obamızda mərmi qoxusunun yerini bürüdü təravətli gül-çiçək rayihəsi. Ziyarətinizə gəldiyimiz 30 dəfənin hər birində “Gün gələcək qisasınızı alacağıq, qanınız yerdə qalmayacaq, ey əziz şəhidlərimiz” sözləri ilə ürəyimiz alovlanar Vətən eşqi ilə, itirdiklərimizin təsirindən başımız aşağı dikilərdi məyuscasına, bədbin halda tərk edərdik xiyabanı. Artıq 4-cü dəfədir ki, adəti üzrə yenə müqəddəs ruhunuz qarşısında baş əyir, şux qəddimizlə, əzmli səslə “Haqq-ədalət bərpa edildi, qədim, tarixi Azərbaycan torpaqları geri qaytarıldı, uğrunda canınızı fəda etdiyiniz Vətənimiz bütövləşdi, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Ruhunuz şad olsun, ey Vətənin əziz övladları!” söyləyirik böyük hörmət və ehtiramla...

**Nail ƏSGƏROV**

## Nazirlər Kabinetinin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində yanvar ayının ilk 15 günü ərzində bir sıra qərarlar qəbul edilmiş, sərəncamlar imzalanmışdır. Qeyd edək ki, “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun tətbiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclis sədrinin müvafiq Fərmanının icrasını təmin etmək məqsədilə Nazirlər Kabineti tərəfindən 2024-cü il 8 yanvar tarixdə Sərəncam imzalanmışdır. Sərəncamda qeyd edilir ki, Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi və digər aidiyyəti dövlət orqanları “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanunu ilə təsdiq edilmiş muxtar respublika büdcəsinin gəlirləri və xərcləri üzrə göstəricilərin yerinə yetirilməsi üçün müvafiq tədbirlər görməli və hər ay üçün növbəti ayın 5-dən gec olmayaraq bu barədə Nazirlər Kabinetinə məlumat təqdim etməlidirlər.

“Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”nin təsdiqi və İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Ali Məclis sədrinin müvafiq Fərmanının icrasını təmin etmək məqsədilə Nazirlər Kabineti tərəfindən 2024-cü il 7 yanvar tarixdə Sərəncam imzalanmışdır. Həmin Sərəncama əsasən mərkəzi icra hakimiyyəti orqanları üç aydan gec olmayaraq Fərmanın icrasını təmin etmək məqsədilə öz səlahiyyətləri daxilində normayaratma vəzifələrindən irəli gələn tədbirlər görüb, normativ-hüquqi aktlarını və ya təkliflərinin olmadığı barədə məlumatı Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə təqdim etmələri və icra vəziyyəti tələb etdikdə Nazirlər Kabinetinə məlumat verilməsi tapşırılmışdır.

“Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında” Nazirlər Kabinetinin müvafiq Qərarında dəyişiklik edilərək Səhiyyə Nazirliyi Kollegiyasının 7 nəfərdən ibarət üzvləri təsdiq edilmişdir.

Nazirlər Kabineti tərəfindən 2024-cü il 11 yanvar tarixli Sərəncamla Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə dair Tədbirlər Planı və Təşkilat Komitəsinin tərkibi təsdiqlənmişdir.

# Şanlı tariximizin dik duruşu, sınmayan mübarizə ruhu və dirçəliş carçısı 20 Yanvar

(əvvəli 1-ci səhifədə)

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra gördüyü ilk işlərdən biri də məhz faciənin hüquqi qiymətləndirilməsi və günahkarların cəzalandırılması istiqamətində olub. Ümummilli Lider Heydər Əliyevin faciənin dördüncü ildönümünün keçirilməsi ilə bağlı imzaladığı 1994-cü il 5 yanvar tarixli Fərman, Milli Məclisdəki tövsiyə və tələb xarakterli çıxışları faciəyə tam siyasi-hüquqi qiymət verilməsi yolundakı əzmkar mübarizəsini göstərirdi. 1994-cü il mart ayının 29-da “1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında” adlı xüsusi Qərar qəbul edildi.

Ölkəmizin hər bir guşəsində, eləcə də onun Naxçıvan Muxtar Respublikasında hər il 20 Yanvar hadisələrinin ildönümü dərin ehtiramla qeyd edilir, igid övladlarımızın fədakarlığı bir daha xatırlanır, onların əziz xatirəsi yad olunur. Naxçıvan şəhərində və muxtar respublikanın rayon mərkəzlərində Vətən şəhidlərinə xatirə kompleksləri ucaldılıb, küçələrə, təhsil ocaqlarına onların adları verilib. Doğma diyarımızda müharibə veteranlarının, şəhid ailələrinin və əlillərin problemlərinin dövlət səviyyəsində həlli mühüm vəzifələrdən biridir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da yaxşılaşdırılır. Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublikası Təşkilatı da 20 Yanvar hadisələrinin və zaman-zaman xalqımıza qarşı törədilən cinayətlərin gənc nəslə çatdırılması, onlarda milli mənlik şüurunun və vətənpərvərlik hisslərinin inkişaf etdirilməsi ilə bağlı tədbirlər təşkil edir, milli qəhrəmanlarımız və şəhidlərimiz gənclər arasında geniş təbliğ olunur.

20 Yanvar, eləcə də Qarabağ müharibəsində şəhid olmuş Vətən övladlarının ailələri tam dövlət qayğısı ilə əhatə olunub.

Bu gün müasir tariximizin ən unudulmaz və şərəfli dövrünü yaşayırıq. Azərbaycan son 200 ildə ilk dəfə itirilən torpaqlarını geri qaytarıb, suverenliyini tam bərpa edib. 44 günlük Vətən müharibəsində qazanılan böyük Zəfərdən bir müddət sonra – ötən ilin sentyabrında cəmi bir gün ərzində uğurla icra olunan uğurlu antiterror əməliyyatları nəticəsində düşmən separatizminə tamamilə son qoyuldu, ərazi bütövlüyümüz bərpa olundu. Müharibə cinayətkarlarının ədalət qarşısına çıxarılmasını və mühakiməsini məhz Azərbaycan dövləti həyata keçirdi, Xankəndidə böyük hərbi parad təşkil olundu. Bütün bunlar ölkəmizin azad, müstəqil və güclü dövlət olduğunun, xalqımızın birliyinin, qüdrətinin dünyaya açıq formada bəyanıdır.



1990-cı il 20 Yanvar hadisəsini, həmin gün şəhidlərimizin qanının hədər axmadığını, o qanlar bahasına bugünkü azadlığımızın, müstəqilliyimizin, dövlət quruculuğumuzun, tərəqqimizin bünövrəsinin qoyulduğunu gələcək nəsillər də böyük ehtiramla xatırlayacaqlar. Çünki bir millət kimi sınmadığımızın, əyilmədiyimizin, məğlub olmadığımızın, ümummilli mənafelər uğrunda birləşə bildiyimizin, azadlığımızı və müstəqilliyimizi qanımızla və canımızla əldə etdiyimizin sübutu olan 20 Yanvar qan yaddaşımıza yazılmış tariximiz, eyni zamanda qəhrəmanlıq salnaməmizdir. Bu tarixi yazanların və bu tarixin hüquqi, siyasi və tarixi qiymətini verənlərin xatirəsi hər bir azərbaycanlı üçün əzizdir.

Biz Vətəninə, torpağına bağlı qəhrəmanlar yetişdirən xalqıq. Vətənimizin müstəqilliyi, torpaqlarımızın azad olunması naminə ölümü gözə alan gənclərimiz bu müqəddəs amal uğrunda şəhid olursa, bu, xalqımızın böyüklüyüdür. Şəhid qanı axmayan torpaqdan Vətən olmaz. Öz canları, qanları bahasına döyüşərək böyük qələbələrə nail olan əsgər və zabitlərimiz həm də 20 Yanvar faciəsi, Xocalı soyqırımı, Birinci Qarabağ müharibəsi zamanı şəhid olmuş oğul və qızlarımızın qanını yerdə qoymadı. Şəhidlər ölməz, unudulmaz! İllər keçsə də, gələcək nəsillər onları hər zaman böyük minnətdarlıq duyğusu ilə yad edəcəklər.

**Mirməcid SEYİDOV**

***Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri***

# Xalqımızın qəhrəmanlıq tarixi



## Şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub

Dünən saat $12^{00}$-da ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

## Azadlıq zirvəsinə gedən yolun cəngavərləri

Müstəqilliyimiz üçün canlarını qurban verən günahsız insanlarımızın vətənpərvərliyi bu gün də hər birimizi düşündürür. Onlar azadlığa qovuşmaq yolunda şərəf və ləyaqət zirvəsinin cəngavərləri oldular.

İllərin əsarət zəncirini tamamilə qıran Azərbaycan şanlı müstəqillik tarixini həmin yanvar şəhidlərinin qanı ilə yenidən yazdı. Elə azadlığımızı bizə bəxş edən də canını düşünmədən meydana axışan bacı-qardaşlarımız oldular. Babam hər zaman bu haqda danışardı. Böyüdükcə kitab və televiziyadan öyrəndiklərim məndə ifadəsi olmayan hisslər buraxıb. Bu faciə Azərbaycanın azadlıq mübarizəsinə vurulmağa cəhd edilən zərbə idi. Eyni zamanda həmin gün hər bir azərbaycanlı üçün qəhrəmanlığı ehtiva edən tarixdir.

20 Yanvar hadisəsi xalqımızın sonrakı taleyində dönüş anı oldu. Həmçinin Azərbaycan milli kimliyinin formalaşmasına həlledici təsir göstərməklə yanaşı, dövlət müstəqilliyinin bərpa edilməsində böyük rol oynadı. Lakin bu millətin arxalandığı bir rəhbər var idi: Ümummilli Lider Heydər Əliyev! 20 Yanvar hadisələrinə düzgün və obyektiv, hüquqi-siyasi qiymət verilməsi də məhz onun adı ilə bağlıdır. Həmin çətin günlərdə faciə ətrafındakı xəyanət sükutunu ilk yaran dahi şəxsiyyətin haqq səsi oldu. Faciənin ertəsi günü ilk dəfə olaraq Ulu Öndərin Azərbaycan xalqına qarşı törədilən cinayətə, qanlı təcavüzə etiraz səsi ucaldı.

Bu gün artıq Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir ki, dövlətimiz dünya miqyasında tanınır, daim irəliyə doğru addımlayır, xalqın həyat səviyyəsi getdikcə yüksəlir. Sevinirik ki, bu gün müstəqil dövlətimizə rəhbərliyi məhz bu siyasi məktəbin ən layiqli yetirməsi möhtərəm Prezidentimiz cənab İlham Əliyev edir. 44 günlük Vətən müharibəsi zamanı isə Azərbaycanın əzəli və əbədi torpaqlarına qovuşması xalqın Liderinə etimadını doğruldub. Əminliklə deyə bilərik ki, 20 Yanvar şəhidləri cəsarətlə Vətənimizin müdafiəsinə qalxdıqları kimi İkinci Qarabağ müharibəsinin şəhid və qaziləri də başda olmaqla bütün döyüşçülərimiz eyni ruh yüksəkliyi ilə torpaqlarımızı işğaldan azad etdilər. Vətən müharibəsinin şəhidləri canları və qanları bahasına 20 Yanvar şəhidlərinin yürüdüyü azadlıq yolunu əzmlə qət edərək Vətənimizi bütövləşdirdilər. Azərbaycan deyən hər bir vətənpərvərin şəhadətə yüksəlməyi özünə amal seçərək irəlilədiyi yolda yalnız bir nəticə ola bilər. Bugünkü tam ərazi bütövlüyü olan azad Azərbaycan. Bu böyük zəfəri qəhrəmanlıqları sayəsində bizə bəxş edən vətənsevər insanlarımızdır. 20 Yanvar müstəqilliyimiz uğrunda mübarizənin təməl daşıdır.

✍ Süreyya QƏDİMƏLİYEVA

## Müstəqilliyimizin 20 Yanvarla başlayan şərəfli yolu

Azadlıq elə bir şirin nemətdir ki, o özünə, tarixi keçmişinə, soykökünə hörmət etməyi bacaran xalqların qismətinə düşür. O xalqların övladları da vətənpərvər böyüyür, doğulduqları yurd yeri onlar üçün səcdəgah qədər qiymətli olurlar. Bələləri öz yurdunun azadlığa qovuşması yolunda canlarından keçməyi şərəf işi hesab edirlər. Çünki azadlıq heç kəsə elə-belə verilmir, qazanılır. Bu yolda qanlar tökülür, qurbanlar verilir. Şəhidlik zirvələri fəth olunur. Elə xalqın azadlıq, müstəqillik tarixi də onda yazılır...

Tarixən başı çoxlu bəlalar çəkmiş, dəfələrlə döyüş meydanına çevrilmiş Azərbaycanımız da bu əvəzsiz nemət uğrunda tarixin müxtəlif dönəmlərində mübarizələrə qalxmış, özünün varlığını sübut etməyə çalışmışdır.

...Düz 34 il bundan qabaq xalqımız özünün belə bir qəhrəmanlıq tarixinə imza atdı.

O soyuq qış günü Vətən övladları üçün kürsü qədim Bakının qan gölünə çevrilən küçələri oldu. İgid eloğullarımız o gün bir daha sübut etdilər ki, torpaq, uğrunda ölən varsa, Vətəndir. Bu amal uğrunda ölümün gözünə dik baxmaq üçünsə, insanın qanında azadlıq eşqi, azadlıq duyğuları alovlanmalıdır. Damarlarında axan qan onları doğma yurda bağlamalıdır.

O hadisəni törədənləri tarix də, xalqımız da nifrətlə xatırlayır. Çünki o müdhiş gecədə azğınlaşmış, heç əvvəldən də mənəvi siması olmayan imperiya bütün iç üzünü açıq göstərdi. Ancaq Azərbaycan xalqının iradəsini, əzmini qıra, azadlıq eşqini söndürə bilmədi.

Hər ilin yanvar ayı yaxınlaşdıqca, 20 Yanvar faciəsi haqqında düşündükcə bir daha o günlərə qayıdıram...

Ötən günlərin birində isə orta məktəbin 6-cı sinfində oxuyan nəvəmin verdiyi sual məni içimdən silkələdi: "Onların günahı nə idi ki, baba?" Heç vaxt unuda bilməyəcəyimiz, unutmağa haqqımız da olmayan o günlər kino lenti kimi bir daha gözlərimin önündən gəlib keçdi...

O gün bir saatın, bir günün içində gəlməmişdi. Neçə-neçə əsr əvvəllərdən başlamışdı o günün bizə qədər gəlib çıxan yolu. Babəkə gedib çıxır. Şah İsmayıldan keçir bu yol. Uzaq Sibir çöllərində insanı tikan kimi deşən soyuqda, şaxtada "Vətən xaini" kimi ömür sürən insanların içini deşən azadlıq, müstəqillik, həmrəylik arzularının yoludur bu yol.

O gün havanın da rəngi qan ağlayırdı – bununla nə isə demək istəyirdi, bəlkə...

O gün insanlar da birtəhər olmuşdular elə bil. Daha da bir-birlərinə yaxınlaşmaq, bir-birlərinin yanında olmaq istəyirdilər. Bəlkə də, heç kimin gözləmədiyi qara günün xəbəri Ulu Tanrıdan onlara agah olmuşdu...

...Bakı qan dənizində çalxalanmağa sürüklənirdi...

O gün doğma yurdu azğınlardan, çörəyi dizinin üstündə olanlardan qorumaq üçün ayağa qalxan insanlara tuşlanan silahlar bu xalqın ürəyinə tuşlanan silahlar idi; uzun illər uğrunda mübarizə apardığı ideala tuşlanan silahlar idi.

O gün Bakının küçələrindən insan qanı axırdı. Bu, XX əsrdə xalqımıza qarşı törədilmiş faciələrin davamı idi. Ən dəhşətli hal isə onda idi ki, bizim səsimizi ancaq özümüz eşidirdik. Bu da taleyimizə yazılan bir oyun, bir qismət idi.

İnsanlığın da, barbarlığın da hər üzünü görən bu qoca dünya da sanki bizdən üz döndərmişdi. Üz döndərməsəydi, ulu, qədim tarixə malik olan bir xalqın göylərə ucalan ah-naləsinə dözə bilməzdi.



Nə idi günahımız? Düşmən qabağında baş əymək, azad yaşamaq arzusumu? Bu ki bəşər övladının əzəli, əbədi arzusudur.

O gün yüzlərlə soydaşımız ağır hərbi texnikanın qurbanına çevrildi – daha doğrusu, məkrli bir siyasətin qurbanına. Bu siyasətin həyata keçirilməsi isə bir sıra məqsədlərə işıq salırdı. "Əz, parçala, hökm sür" qanunu ilə 70 il ömür sürən, dayaqları artıq laxlamaqda olan bir imperiya yeraltı və yerüstü sərvətləri ilə bütün dünyada tanınan bir məmləkətin üzərindəki ağalığını bu yolla davam etdirmək istəyirdi. İmperiyanın və onun siyasətinin iç üzünə dərindən bələd olan yurdsevər Azərbaycan övladları tarixin qan yaddaşına yazılan bir çox ağrıları, faciələri unutmamışdı.

Bədnam Gülüstan və Türkmənçay müqavilələri, 1918-ci ilin 31 mart soyqırımı, əsrin əvvəllərindən başlayaraq bir neçə dəfə olan Azərbaycan türklərinin deportasiyası və saymaqla qurtarmayan neçə-neçə belə faciənin yaraları xalqın qəlbində qaysaq bağlamışdı.

Neçə illərdir ki, ruhları başımız üstündə gəzən o günahsızların "günahı" həmin məkrli siyasət və öz keçmişini unutmamaq idi.

Xalqın azadlığa, müstəqilliyə can atmaq arzusunu bələkdəcə boğmaq istəyindən yoğrulmuş belə məkrli siyasət məlum "əz, parçala, hökm sür" prinsipinin kulminasiyası olsa da, ancaq onun müəllifləri öz istəklərinə nail ola bilmədilər, xalqın əzmi qarşısında duruş gətirməyə gücləri çatmadı.

O gün doğma yurdun vətənpərvər oğulları dünya qarşısında nəyə qadir olduğumuzu bir daha sübut etdilər. Sübut etdilər ki, bu xalqın damarlarında ulu Xətainin, Tomris ananın, Sara xatının qanı var.

Bu da taleyin bir qisməti idi ki, o azadlıq mücahidlərini Şəhidlər xiyabanında son mənzilə yola saldığımız günlərdə qocaman Bakımızın, Naxçıvanımızın doğum evlərində dünyaya gələn körpələrin hamısı oğlan uşağı idi. Deməli, onların yerini tutacaq, ideyalarını davam etdirəcək, yaşadacaq nəsil dünyaya gəlirdi. Bu uşaqlar, onları dünyaya gətirən valideynlər o vaxt bilərdilərmi ki, 30 il sonra övladları Qarabağı bizə qaytaracaqlar? Yəqin ki, yox. Ancaq bu, tariximizin qızıl səhifəsi oldu. Onlar 1990-cı ilin şəhidlərinin mənəvi və fiziki davamçıları oldular. Ölkə başçısının bir çağırışı ilə azadlıq mücadiləsinə atıldılar; xalqımıza Zəfər qazandırdılar, Xankəndi qürurumuzu, ərazimizin Qarabağ bütövlüyünü, mədəniyyətimizin Şuşa konservatoriyasını özümüzə qaytardılar.

O gündən ötən illərdə çox sular durulub, çox həqiqətlər üzə çıxıb. Bu gün o faciədən 34 il keçir. Ancaq şəhidlərimiz hər an xatırlanır, böyük minnətdarlıqla anılır. Onların buna mənəvi haqqı var.

Bu gün müqəddəs and yerimizə çevrilən ünvanlar var: Şəhidlər xiyabanları. Bu ünvanlarda uyuyanlar öz şirin canlarını azadlığımıza, müstəqilliyimizə, dövlətimizə və dövlətçiliyimizə qurban verərək qəlbimizdə və keşməkeşli tariximizin qızıl səhifələrində özlərinə əbədi məskən tutublar.

✍ Muxtar MƏMMƏDOV

## Qanlı Yanvar günündə şəhid olan igid naxçıvanlı

Xalqımız üçün unudulmaz tarixlərdən biridir 20 Yanvar. Həmin gün milli azadlıq, müstəqillik naminə canlarını fəda edən qeyrətli, vətənpərvər oğul və qızlarımız qəhrəmanlıq tariximizə şanlı səhifələr yazdılar.




1962-ci il noyabrın 25-də Babək rayonunun Əliabad kəndində (indiki Naxçıvan şəhəri, Əliabad qəsəbəsi) doğulan Abbasəli Nəzərəliyev də 20 Yanvar günü şəhid olan qəhrəman Vətən oğullarından biri idi. O, Əliabadda 8 illik məktəbi bitirdikdən sonra Naxçıvan şəhərindəki peşə məktəbində dülgərlik sənəti üzrə oxumuş, peşə məktəbini bitirdikdən sonra hərbi xidmətə yollanmışdı. Hərbi xidmətdən qayıtdıqdan sonra tikintidə dülgər kimi çalışmışdır. Şəhidimiz 1988-ci ildə ailə həyatı qurur və bir qızı dünyaya gəlir. Qızı Şövkət Nəzərəliyeva hazırda atasının adını daşıyan Əliabad qəsəbə tam orta məktəbində ibtidai sinif müəllimidir. Yoldaşı Mədinə Vəliyeva isə Əliabad 15 saylı körpələr evi-uşaq bağçasında tərbiyəçi işləyir. Şəhidimizin 3 nəvəsi var.

Mədinə xanımın dediklərindən: – Abbasəli ilə bir sinifdə oxumuşduq. O, çox gözəl dülgər idi, bu sənət sahəsi üzrə çalışırdı. İl yarım bir yerdə qaldıq. 1990-cı il yanvarın 16-da işdən çıxıb evə gəldi. Ana və atasına "Birdən məni döyüşə çağırarlar qalxarsınız ki, getməsin, Vətənin dar günündə üzərimə düşəni edib, döyüş yoldaşlarımın yanında olacağam!" – dedi. Həmin gün Əliabadda yaradılmış qərargaha növbətçi təyin olunmuşdu. Getdi və yanvarın 19-na qədər gəlmədi. Yanvarın 18-19-da kəndin müdafiəsində iştirak etdi.

O zamanları xatırlayıram, bütün Naxçıvan ayağa qalxmışdı, hamı köməyə gedirdi. Xəbər tutdu ki, Abbasəli sağdı, gələcək. Gəldi, amma necə gəldi. Sədərəkdə çaxır zavodunu partlatmışdılar. Abbasəli də oraya köməyə getmişdi. Yanvarın 20-si Abbasəli daha şiddətli döyüşlərin getdiyi Sədərəyə yollandı. "Gül balam", – deyə müraciət etdiyi qızımızla sağollaşdı, lakin anası oğlunu görə bilmədi, o qədər ki tələsirdi. Ölümə tələsirdi sanki... Elə yanvarın 20-si Sədərəkdə döyüşdə yaralanıb. Həmin vaxt tibb bacısı Nəzifə Qaybalıyeva mənə dedi ki, bu oğlan ölmək istəmirdi, elə deyirmiş ki, məni çatdır evə son dəfə ailəmi görüm. Şərur yolunda rəhmətə getmişdi. Şəhid olmağından yanvarın 20-si axşam xəbərimiz oldu. 20 Yanvar günü Bakıda qeyrətli oğullarımız öz qızıl qanına boyananda Abbasəli də burada şəhidlik zirvəsinə yüksəldi. Naxçıvan şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Tez-tez ziyarətə gedirik. Abbasəli çox mehriban, vətənpərvər insan idi. Kimdən soruşsan, onun haqqında yaxşı fikirlərini deyər. Abbasəlini xatirələrimdə yaşadıram.

Qürurluyuq ki, bu gün müstəqilik, doğma Qarabağımız azaddır. Bunu Vətən, torpaq uğrunda gözünü qırpmadan canını fəda edən qəhrəmanlarımıza – şəhidlərimizə borcluyuq. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

✍ Güntac ŞAHMƏMMƏDLİ

# Naxçıvan SSRİ-nin tərkibindən necə ayrıldı:

## 19 yanvar 1990-cı il – sonun başlanğıcı




*34 il əvvəl, Sovet rejiminin tarixində ilk dəfə bir muxtariyyət Sovet İttifaqının tərkibindən çıxdığını bəyan etdi. Yalnız il yarımdan sonra 1991-ci ilin sentyabrında Baltikyanı ölkələr müstəqilliyə qovuşa bildilər, həmin ilin sonunda isə Sovet İttifaqının özü dağıldı.*

1990-cı ilin yanvarında bir tərəfdən erməni təcavüzü, digər tərəfdən isə ozamankı Sovet imperiyası rəhbərliyinin buna şərait yaratması, Azərbaycana qarşı siyasi və iqtisadi təzyiqlərin artması, xalqımızın azadlıq və müstəqillik arzularının boğulması cəhdləri getdikcə güclənməkdə idi. Bakı şəhərində Qanlı Yanvar hadisəsi kimi yaddaşımızda qalmış qırğınları törətməyə hazırlaşan imperiya ordusu və repressiv aparatı ölkəmizin digər hissələrində, o cümlədən Naxçıvanda da bu siyasətini davam etdirmək niyyətində idi. 1990-cı ilin yanvar ayından başlayaraq erməni silahlı birləşmələri Naxçıvanın ayrı-ayrı yaşayış məntəqələrinə ardıcıl hücumlar təşkil edirdi. Belə bir şəraitdə Naxçıvan rəhbərliyi İttifaq rəhbərliyindən Konstitusiyada olan öhdəliklərinə əməl edərək muxtar respublikanın təhlükəsizliyinin təmin edilməsini tələb edirdi. Keçmiş SSRİ rəhbərliyi nəinki bunu etmir, əksinə, bir çox hallarda Naxçıvana hücumlar zamanı erməni (o zamanlar qeyri-qanuni fəaliyyət göstərən) hərbi dəstələrinə kömək edir, bir sıra hallarda isə bilavasitə bu hücumlarda iştirak edirdi. Yanvar ayının 15-də keçmiş SSRİ-nin Daxili Qoşunlarının iştirakı ilə Naxçıvanın Kərki anklavı işğal olunmuşdur. Bütün bunların son məqsədi Naxçıvan muxtariyyətinin əhalisi arasında ümidsizlik vəziyyəti yaradaraq bölgənin yerli əhalisi tərəfindən buranın boşaldılması və erməni işğalı üçün şərait yaratmaq idi. Yanvar ayından düşmənin Sədərək istiqamətində hücumu baş verdi, toqquşmalar getdikcə intensivləşdi. Türkiyə ilə dar bir zolaqda sərhəddə yerləşən bu strateji məntəqənin ermənilər tərəfindən nəzarətə götürülməsi Naxçıvan eksklavındakı Azərbaycan əhalisinin vəziyyətini ağırlaşdıra, bölgədə Azərbaycanın varlığına son qoya bilərdi.

Mövcud kritik vəziyyətin yaranması səbəbindən Naxçıvan şəhərində muxtariyyətin parlamenti qarşısında toplanan 20 mindən çox sakin muxtar respublika Ali Sovetinin fövqəladə sessiyasının çağırılmasını tələb edirdi. *Naxçıvan MSSR-in Ali Sovetinin (ozamankı parlament) fövqəladə sessiyasında 19 yanvar 1990-cı il axşam saatlarında muxtariyyətin Konstitusiyasının 81-ci maddəsinə əsaslanaraq (SSRİ-nin Azərbaycanın və Naxçıvanın suverenliyinin və ərazi bütövlüyünün müdafiə etmək öhdəliklərinə əməl etməməsi və 1921-ci il çoxtərəfli Qars müqaviləsinin şərtləri pozması səbəblərindən) SSRİ-nin tərkibindən ayrılması barədə Qərar qəbul etdi. Parlamentin bu Qərarı ilə Naxçıvan müstəqil respublika elan olundu.* İmperiyanın periferiyasında yerləşən və kiçik bir bölgənin SSRİ-nin tərkibindən ayrılması barədə Qərarı SSRİ rəhbərliyində şok effekti yaratdı, bir neçə gün isə bu xəbər dünyanın aparıcı KİV-lərinin diqqət mərkəzində oldu. Əslində, Naxçıvandan gələn bu xəbər Sovet imperiyası üçün bir əcəl zəngi idi. Azərbaycan SSR Ali Soveti muxtariyyət parlamentinin bu Qərarını 27 yanvar 1990-cı ildə ləğv etsə də, siyasi baxımdan bu cəsarətli addım olduqca əhəmiyyətli idi. *Sovetlər İttifaqının 70 illik tarixində ilk dəfə olaraq muxtar ərazinin imperiyanın tərkibindən çıxması barədə qərar kimi tarixə düşən bu hadisə dünyada geniş rezonansa səbəb oldu.* Bu bir tərəfdən SSRİ rəhbərliyini Bakıdakı Qanlı Yanvar hadisələrini Naxçıvanda da təkrarlamaq niyyətindən çəkindirdi, bura sovet ordusunun qoşun hissələri yeridilmədi, digər tərəfdən isə erməni hərbi ekspansiyası barədə dünya ictimaiyyətini məlumatlandırmaq baxımından əhəmiyyətli oldu. Naxçıvan parlamentinin cəsarətli addımı, həmçinin o zaman Azərbaycanda rəhbərlikdə olan və imperiya mərkəzinin antimilli siyasətinə qarşı çıxış etməkdə özündə cəsarət tapa bilməyən şəxslərə də bir mesaj oldu. Naxçıvan muxtariyyətində Sovet rejiminin repressiv aparatının bərqərar olmasının qarşısının alınması isə sonrakı dövrdə muxtar respublikanın müdafiəsinin təşkili, milli dövlətçiliyin inkişafı üçün zəmin yaradaraq bölgəni Azərbaycanın müstəqilliyi, demokratikləşməsi proseslərinin ön cərgəsinə gətirdi. *Ümummili Lider Heydər Əliyev Naxçıvan MSSR Ali Sovetinin 19 yanvar 1990-cı il tarixli Qərarını nəzərdə tutaraq qeyd edirdi:* ***“Naxçıvanlıların bu cəsarətli addımı o vaxt Sovet İttifaqında yeganə bir addım idi... Bu naxçıvanlıların nə qədər cəsarətli, qeyrətli, nə qədər azadlıqsevər və müstəqilliyə nə qədər bağlı olduğunu sübut etdi, nümayiş etdirdi”.***

**Anar İBRAHİMOV**

## Naxçıvan teatrında *“Skapenin kələkləri”* tamaşasının premyerası keçirilib





Yanvarın 13-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında fransız dramaturqu Molyerin eyniadlı əsəri əsasında səhnələşdirilən “Skapenin kələkləri” tamaşasının premyerası keçirilib.

Tamaşanı Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, nümayəndəliyin əməkdaşları, digər rəsmi şəxslər və ictimaiyyət nümayəndələri izləyiblər.

Qeyd edək ki, tamaşanın quruluşçu rejissoru və musiqi tərtibatçısı Mirqabil Əkbərov, rejissor assistenti Mehri Nəbiyeva, quruluşçu rəssamı Əməkdar rəssam Səyyad Bayramovdur. Səhnə əsərində rolları Xalq artisti Rövşən Hüseynov, Əməkdar artist Əbülfəz İmanov, aktyorlar Cəbrayıl Nəbiyev, Məmməd Mehdiyev, Uğur Nəsirli, Ləman Vəliyeva, Səkinə Məmmədova, Ələsgər Quliyev, Şölə Alışova və Nurlan Sultanlı ifa ediblər.

Düşündürücü və komik səhnələri ilə maraq cəlb edən səhnə əsəri tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

**“Şərq qapısı”**

## 100 illik diyarın 100 yaşlı muzeyi



Yanvarın 17-də Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Tarix Muzeyində Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunmuş “100 illik diyarın 100 yaşlı muzeyi” mövzusunda tədbir keçirilib.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi Aparatının rəhbəri Piri Nağıyev açaraq bildirib ki, bu il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 ili tamam olur. Bununla bağlı 2023-cü il 30 dekabr tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncam imzalayıb. Sərəncama əsasən Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ölkədə, eləcə də muxtar diyarımızda bir sıra elmi və mədəni-kütləvi tədbirlərlə geniş qeyd ediləcək.

Vurğulanıb ki, bu il oktyabrın 30-da Naxçıvan Dövlət Tarix Muzeyinin yaradılmasının 100 ili tamam olur. Naxçıvan MSSR Xalq Komissarları Sovetinin 30 oktyabr 1924-cü il tarixli Qərarı ilə Naxçıvan Tarix-Etnoqrafiya Muzeyi – indiki Naxçıvan Dövlət Tarix Muzeyi yaradılmışdır. Aparat rəhbəri bu münasibətlə muxtar respublikanın mədəniyyət ictimaiyyətini, eləcə də muzey əməkdaşlarını təbrik edib, muzey əməkdaşlarına uğurlar arzulayıb.

Sonra AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun icraçı direktoru, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin, Naxçıvan Dövlət Universitetinin kafedra müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Məmməd Əliyevin müxtəlif mövzularda çıxışları dinlənilib.

Tədbirin sonunda muzeyin ekspozisiyasına baxış olub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Şəhidlər ziyarət edilib



“Şərq qapısı” qəzetinin kollektivi azadlığımız, müstəqilliyimiz, ərazi bütövlüyümüz uğrunda 1990-cı ilin yanvar ayında canlarından keçərək şəhidlik zirvəsinə ucalmış və Naxçıvan şəhərinin Şəhidlər xiyabanında uyuyan igid eloğullarımızın, həmçinin 44 günlük Vətən müharibəsində böyük şücaət göstərərək əbədiyyətə qovuşan qəhrəmanlarımızın şəhər qəbiristanlığındakı məzarlarını ziyarət edib. Şəhidlərin xatirəsi sükutla yad olunub, onların ruhuna dualar oxunub, məzarları üstünə qərənfillər düzülüb.



# Qəhrəman xalqın müzəffər Ordusu

## Biz birlikdə güclüyük



Tarixin səhifələrini vərəqləyəndə, Oğuz türkünün minillik möhtəşəm günlərinə nəzər salanda, son 34 ilin şanlı günləri yada düşəndə, müzəffər Ordumuz dünyaya səs salanda fəxarət hissi duyuruq ki, Azərbaycanda ilk milli ordu Naxçıvan Muxtar Respublikasında yaradılıb. 90-cı illərdə müharibənin ən çətin günlərində Ulu Öndərin yurdumuzda olması və o çətin vaxtlarda bizlə birlikdə yaşayıb xalqı birliyə, həmrəyliyə səsləməsi insanları ümidləndirdi, onların gələcəyə inamını artırdı. Yaxşı xatirimdədir, dahi rəhbər yurda qayıdanda hər kəsin dilində bir kəlmə dolaşırdı: O gəlibsə, deməli, hər iş yaxşı olacaq. Çünki bilirdilər, yaxşı bələd idilər Vətən övladına. Və elə də oldu. Əvvəlcə sovet ordusunun silahlarını təhvil verib yurdumuzu tərk etməsi üçün danışıqlar aparıldı, uzaqgörən insanın rəhbərliyi ilə Ali Məclisin sentyabr ayında keçirilən sessiyasında Naxçıvan Muxtar Respublikasının Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında qərar verildi. Dahi rəhbər xalqı ordu quruculuğuna dəstək verməyə səslədi. El bir oldu və kim əlindən nə gəlirsə əsirgəmədi. 90-cı illərdə neçə-neçə ananın, qız-gəlinin sandığı, mücrüsü açıldı. Məğrur qadınlarımız öz saxlanc yerləri olan sandıqlarından neçə yadigarlarını, xoş günlərinin xatirələrini, toy-duvaq, gəlin üçün əzizlənə-əzizlənə saxlanılan zinət əşyalarını ovuc-ovuc çıxarıb çörəklə yox, silahla, mərmi ilə dəyişdilər. Çünki qeyrətli Azərbaycan anası çətinliklə tapdığı bir ovuc taxılı üyüdüb yemək üçün ağlayan körpəsini sakitləşdirməyi bacarırdı. Amma mənfur, çörəyimizi yeyib torpağımıza göz dikənləri igid oğullarımız ancaq silahlarla susdura, ata-baba torpaqlarımızdan uzaq tuta bilərdi... Xalqın öz rəhbərinə inamı, yurd, Vətən sevgisi yenə qalib gəldi. Milli ordu yaradıldı. Kiçik özünümüdafiə qrupları həmin ordunun sıralarına daxil edildi. ***“Azərbaycan təkcə bu gün yox, gələcəkdə də torpaqlarını, dövlət müstəqilliyini qorumaq üçün güclü orduya malik olmalıdır”***, – deyən Ümummilli Lider Heydər Əliyev ötən əsrin 70-ci illərində ordu quruculuğuna ixtisaslı hərbçi kadrların hazırlanması ilə başlamışdı. 90-cı illərin əvvəlində Naxçıvanda ilk milli ordu qurumu, ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra isə Azərbaycan Silahlı Qüvvələrini yaradaraq bugünkü güclü ordunun təməlini atdı.

Müdriklər deyib: “Sülh istəyirsənsə, müharibəyə hazır ol!” Biz də sülh istəyirdik. Çünki azərbaycanlılar sülhsevərlik və tolerantlıq tərəfdarı olub tarixboyu. Tanrı bizi məhz bu cür yaradıb. Sülh istədiyimiz üçün də müstəqilliyi yeni qazandığımız illərdə itirdiyimiz torpaqların işğaldan azad olunması üçün 30 ilə yaxın gözlədik, diplomatik danışıqlar prosesinə ümid bəslədik. Düşündük ki, indi ibtidai icma quruluşu deyil, XXI əsrdir. Dünya bu qədər ədalətsiz olmayacaq, Azərbaycanın BMT və beynəlxalq hüquq tərəfindən tanınmış ərazi bütövlüyünün bərpasına nail olması üçün işğalçını yerində oturdacaq. Amma yanılmışdıq. Çünki dünya güclünü qalib sayan, gücsüzü görməzdən gələn köhnə dünya imiş hələ də, sən demə. Yanılan isə təkcə biz deyildik, elə qoca dünya da yanılmışdı. Üç əsrdən çoxdur, tarixi torpaqları zaman-zaman əlindən alınan ən sülhsevər xalqın səbir kasasının bir gün daşacağını və silaha əl atacağını heç kəs gözləmirdi.

Kimsənin ağlına belə gəlmirdi ki, döyüşdə silahının patronu qurtaran əsgər düşmən səngərinə əliyalın girib, işğalçı generalı əlləri ilə boğacaq, şəhid anası göz yaşlarını gizlədib, övladının tabutunu özü daşıyıb “sinəndən vuruldun sənə halal olsun”, – deyəcək. Şəhid atası oğlunun cənazəsini qarşılayarkən qurban kəsəcək. İki oğlunu Vətənə qurban verən valideynlər Ali Baş Komandana “müharibəni dayandırmayın, son damla qanımıza kimi döyüşək, ta ki azad olsun yurdumuz” tipli teleqramlar vuracaq. Heç kimin ağlına gəlmirdi ki, təqaüddə olan babalar müavinətini, torpağa alın tərini qatıb ruzi qazananlar illik ruzilərini orduya bağışlayacaq. Bir evdə beş oğul varsa beşi də müharibəyə getməyə can atacaq. Bütün bunlar yaxın keçmişdə Azərbaycanda baş verirdi. Biz bunları kitablardan oxumadıq, kinofilmlərdə görmədik, yaşadıq. 44 günlük Vətən müharibəsində yaşadıq. Bunlar 30 illik işğaldan bezən xalqın öz qüruru və şərəfi uğrunda mübarizəsi, həm də susqunluğu, bitərəfliyi ilə işğalçıya dəstək verən dünyanın ədalətsizliyinə etirazı idi.

Azərbaycan xalqı 44 gün ərzində təkcə Ali Baş Komandanı, ordusu, həkimi ilə deyil, müəllimi, kəfən pulunu Silahlı Qüvvələrə Yardım Fonduna köçürən təqaüdçüsü, satdığı meyvələri əsgər kolonuna bağışlayan kəndlisi ilə də tarix yazdı.



Yenə bir qaranlıq gecə igid Azərbaycan əsgərinin şücaəti, rəşadəti ilə nura qərq oldu. Yenə bir sabahımız qələbə xəbəri ilə açıldı. İgid oğullarımız sentyabrın 27-ni tariximizə öz qanları ilə yazdı. Yeni bir tarixi gün, yeni bir qələbə illərdir, torpaq həsrəti ilə yaşayan insanların gözündə sevinc yaşına, ürəyində qürura döndü. Torpaqlarımız erməni vandalları tərəfindən işğal ediləndən illər sonra 2016-cı ilin Aprel döyüşlərində xalqımız həsrətində olduğu qələbə xəbəri ilə açdı bir yaz səhərini. İki il sonra 2018-ci ilin may səhərində isə qədim Naxçıvanımızdan qələbə soraqlı müjdələr qanad açdı doğma Azərbaycanımıza. 27 sentyabr günündən başlayaraq 44 gün ərzində el bir oldu, “Biz birlikdə güclüyük” şüarı Qarabağımızın azadlıq çağırışına döndü. Bu müharibədə qazanılan qələbə zamanın axışını dəyişdi. Regionun və dünyanın tarixini yenidən yaratdı. Alman faşizmindən daha qəddar olan erməni faşizminə “dəmir yumruğ”umuzla sarsıdıcı zərbə vurduq. Postsovet məkanında 1945-ci ildən sonra ilk Qələbə paradı da Bakıda keçirildi. Vaxtilə ermənilərin “Bakıya öz tanklarımızla gedəcəyik” “xəyalını” ordumuz tərəfindən ələ keçirilən məğlub ordunun tanklarını parada gətirərək gerçəyə çevirdik. Hamı gördü ki, bu xalq torpaqlarının işğalına 30 il səbir edə bilər, amma bununla barışa bilməz. Bütün dünya mediası oğullarımızın igidliyindən, qəhrəmanlığından yazdı. “Belə döyüş, belə dövlət, belə Vətən sevgisi görən olubmu? Demək çətindir. Bir müxbir kimi dünyanın bir sıra ölkələrini gəzmişəm, müharibə zonalarını müşahidə etmişəm. Beləsini görməmişəm. Azərbaycan əsgəri dağ yuxarı, həlak olmuş yoldaşı çiynində, döyüşə-döyüşə, qan-tər içərisində qalxırdı. Nə yaralını, nə də öləni əldən buraxırdılar. Budur vətənpərvərlik! Budur Vətən sevgisi! Budur torpağa bağlılıq!” Tariximizin qanla yazılan səhifəsi, qürur günlərimiz 44 günlük Vətən müharibəsində rus mətbuatında dərc olunmuş bir məqalədən bu sətirləri oxuduqca insan qürurlanmaya bilmir .

Biz azərbaycanlı olduğumuz üçün fəxr edirik. Çünki keçmişi zəfərlərlə dolu qəhrəman bir xalqın, beş əsr öncə vahid Azərbaycanı, yüz il öncə Şərqdə ilk demokratik dövləti, 34 il əvvəl isə qanı ilə tarix yazan, tankların önünə əliyalın atılan ataların, igid oğullar böyüdüb Vətənə qurban verən anaların övladlarıyıq. Kimliyindən, harada dünyaya gəlməyindən asılı olmayaraq, biz bir olduq. Vətən müharibəsində qədim Naxçıvanın ər igidləri aslan kimi döyüşüb başımızı uca etdilər, bizə qələbəni gətirdilər. 90-cı illərdə burada dünyaya gələn, güllə səsi dinləyə-dinləyə böyüyən oğullar düşmənin başına od ələdi.

Bu gün qürur hissi ilə deyirik ki, təməli Naxçıvanda dahi rəhbər tərəfindən qoyulan milli ordumuzun igidləri xalqımızın illərdir, qanayan yarasına məlhəm oldu. Müzəffər Ordu adını qazandı. Vətən müharibəsində qədim yurdumuzun igidləri də buradan Qarabağa üz tutub savaşa qatıldılar, Şuşa, Hadrut fatehi adını aldılar. Naxçıvanın qəhrəman övladları zəfər yolunu Şuşada tamamlayaraq “dəmir yumruğ”un parlaq qələbəsinin təmin edilməsində qəhrəmanlıq göstərdilər.

Ötən ilin sentyabr ayında keçirilən lokal xarakterli antiterror əməliyyatında suverenliyimizi bərpa edən ordumuz tarixə yenə öz qanı ilə imza atdı. İgid Vətən oğulları cəmi 23 saat 44 dəqiqəyə suverenliyimizi bərpa etdi, 30 il ərzində həllini gözləyən böyük bir problem ortadan qaldırıldı. İgid Azərbaycan əsgəri “uf” demədən canını Vətən torpağının bir qarışına qurban verdi. Evlərimizə bayrağa bükülü şəhid tabutları gələndə, bağrımız yansa da, başımızı dik tutduq. Çünki bilirdik ki, ordumuz bütöv Azərbaycanı yaradan Şah İsmayılın, dünyaya dərs keçən Atabəy Eldəgizin, əsgəri ilə çiyin-çiyinə döyüşən Polad Həşimovun, öz qəhrəmanlığı ilə dillərə dastan olan Mübariz İbrahimovun davamçıları olduqlarını sübuta yetirdilər. Onlar son 200 ildə başımıza gətirilən müsibətlərin qisasını alaraq, soydaşlarımızın – şəhidlərimizin sümüklərinin göynərtisinə son verdilər. 1990-cı ilin 20 yanvarında sovet ordusunun tanklarının qarşısına qorxmadan, əliyalın çıxıb sümükləri xıncım-xıncım olan oğulların, Xocalıda beş övladının hər birini bir qarlı təpədə itirən ananın, dünyaya göz açmağa macal tapmadan anasının bətnindən çıxarılıb süngüyə keçirilən körpələrin, baltaya tuş gələndə ərşi aləmə qalxan Topxana meşəsinin, ağ günləri qaraya dönən Ağdamın sinəsinə erməni bayrağı sancılanda bağrı yanan Vətənin, yarımcan edilən Azərbaycanın qisasını aldılar.



**✍ Ramiyyə ƏKBƏROVA**



# 100 ilin qəhrəmanları

*"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində bir şəhid anasının övladı haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Kəngərli rayonunun Xok kəndindən olan şəhidimiz Təbriz Əsgərovun anası Təranə Əsgərovanın övladı haqqında xatirəsi yer alıb.*

## Təbriz Çapay oğlu Əsgərov

*18.07.1997 – 09.11.2020*

### Qarabağda torpaq alıb orada yaşamaq istəyən şəhidimiz







Təbriz dükan-bazardan nə alırdısa mənsiz yeməzdi. Ən adi suyu belə mənimlə bölüşərdi. Deyirdim ki, Təbriz, etmə belə. Deyirdi: "Ana, boğazımdan heç nə keçməz". Hər dəfə harasa uzağa gedəndə qucaqlayıb öpərdim.

Müharibəyə isə bizdən xəbərsiz getdi. Hər zaman evdən çıxanda deyirdim ki, ya Allah, deyib evdən çıx. Deyirdi, ana, sən mənə o qədər dua edirsən ki, sənin duaların məni qoruyur. Qapıdan hər çıxanda deyirdi ki, sən özündən muğayat ol, gəlirəm. Deyirdim ki, a bala, sən muğayat ol, özündən. Axırı bir dəfə təlimdə yıxıldı, çiyni qırıldı, əlini balta bölmüşdü. Deyirdi, yox, ay ana, mən işə gedəndə səndən çox nigaran qalıram.

Evdən son gedişində üzümə baxmadı. Anidən geri döndü. Gördü ki, mən ona baxıram, dedi: "Ana, mənə elə baxma. Narahat oluram. Sadəcə, "mənə dua elə". Həmişə evdən çıxanda "sən özündən muğayat ol, ana" deməmiş çıxmazdı.

Hər dəfə təndirdə çörək bişirəndə qan təzyiqim yüksələrdi. Bunun üçün çörək bişirəndə bağlardan turş alça gətirərdi mənə. Deyirdi, ana, axşam təzyiqin yüksələr, narahat olarsan. Həm mənim, həm atasının, həm də bacısının.

Böyükdən tutmuş uşağa qədər hər kəsin könlünü alardı. Bu xasiyyətinə görə də onu tanıyanların sevimlisinə çevrilmişdi.

Təbriz üçün qəhrəmanlar var idi. O qəhrəmanlardan biri Mübariz İbrahimov idi. Ancaq Mübariz İbrahimovun fotoşəkillərini yığırdı. Mübarizlə fəxr edirdi. O, Mübarizin fotolarına baxanda düşmənə olan nifrətini hiss edirdim. Sən demə, Təbriz içində düşmənə qarşı böyük bir nifrət bəsləyib, böyüdüb. O nifrətlə qorxmadan Qarabağa yol aldı.

Təbrizin ürəyi həmişə Qarabağla döyünürdü. Mütləq söhbətlərində onun dilində Qarabağ olurdu. Qarabağı görməsə də, o qədim yurd yerini çox sevirdi.

Heç müharibə başlamamışdı. Hər dəfə mənə deyirdi ki, ana Qarabağ alınsa, icazə verərsənmi oradan torpaq alıb yaşayım. İnanırsız ki, həmin vaxtlar heç müharibədən söhbət də getmirdi. Deyirdim, bunu haradan fikirləşirsən? Deyirdi, ana olar da. Bəlkə, Qarabağ aldılar. Təbriz Qarabağda torpaq ala bilmədi. Ancaq Qarabağı alanlardan biri oldu. Onun ruhu orada yaşayır. Mənim də ruhum onunla birlikdə elə məhz Qarabağda yaşayır.

*Əfsanəyə dönən ömürlər*

## Qısa ömrə böyük qəhrəmanlıqlar sığdırmaq

Torpaq uğrunda ölən varsa, Vətəndir. Nə xoş halına, Azərbaycanım! Hər qarışında, hər daşında minlərlə övladının sənin uğrunda tökdüyü qanı, mavi səmanda müqəddəs ruhları var. Nə əzizsən ki, Vətən, ömrünün ən gözəl çağlarını yaşamadan "öncə Vətən!" deyərək düşmənin üstünə atılan, onu məhv edərək səni azadlığına, hürriyyətinə qovuşduran oğulların, qızların var. Necə böyük dəyərsən ki, "bir ölər, min dirilərik" deyərək hər kəndində, hər ocağında sənin gələcəyin, istiqbalın üçün qəhrəman övladlar yetişdirilir. Sənin ucalığından, əzəmətindən, müqəddəsliyindən güc alaraq böyüyür Azərbaycan övladları. Sən elə bir ümidsən ki, xoşbəxtliyimiz sənin gücündə, sənin böyüklüyündədir.Vətənim, sən o qədər ali dəyərsən ki minlərlə övladın uğrunda şəhidlik zirvəsinə yüksəlib.

Elə şəhid baş leytenant Nihat Qasım oğlu Quluzadə kimi. Nihat 24 yanvar 1997-ci ildə Ordubad rayonunun Unus kəndində dünyaya göz açmışdı. Zəhmətkeş ailənin sonbeşiyi, tək oğul övladı idi. Uşaq vaxtından sakit təbiətli olsa da, verdiyi sözü nə bahasına olursa-olsun, yerinə yetirər, fikirlərini, istəklərini söyləməkdən çəkinməzdi. Nihat məktəbdə təhsil aldığı müddətdə qərar vermişdi hərbçi olacağına.



Onun arzusu nə qədər gözəl olsa da, valideynləri oğlunu gözündən uzağa qoymaq istəmirdilər. Amma Nihatın qəti mövqeyi valideynlərinin də razılığı ilə nəticələnir. Nihat 2011-ci ildə Heydər Əliyev adına Hərbi Liseyə daxil olur. 2014-cü ildə hərbi liseyi bitirdikdən sonra Bakı şəhərində Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Motoatıcı taqım komandiri ixtisası üzrə təhsilini davam etdirir. 2018-ci ildə leytenant hərbi rütbəsi alaraq ordu sıralarında taqım komandiri kimi xidmətə başlayır. Nihat əsgərlərinə həm komandir olur, həm də dost-qardaş. Hər biri ilə maraqlanır, köməyini əsirgəmir. Əsgərlərini əsl vətənpərvər döyüşçü kimi yetişdirir. Çünki o bilirdi ki, möhtəşəm Zəfər çox yaxındadır.

Azərbaycan tarixinin ən şanlı səhifəsi 27 sentyabr 2020-ci ildə yazılmağa başladı. Onu yazanlar isə Nihat kimi minlərlə Azərbaycan oğlu idi. Nihat Quluzadə 44 günlük Vətən müharibəsi başlayan gündən döyüşlərdə şücaətlə vuruşur. Azərbaycan Respublikasının Milli Qəhrəmanı Mübariz İbrahimovun şəhid olduğu postun düşməndən alınmasında böyük hünər göstərir, elə bu döyüşlərdə də yaralanır. Silahdaşlarını tək qoymaq istəməyən Nihat yaralı halda 8 saat döyüşləri davam etdirir. Nihat Azərbaycan Ordusunun şanlı Zəfərinə kimi xəstəxanada müalicə alır, bu barədə isə ailəsinə heç nə bildirmir. Alınmaz qala Şuşanın işğaldan azad olunmasını, möhtəşəm Zəfər xəbərini göz yaşları və qürurla qarşılayır.

2021-ci ilin 2 fevralında Nihat bir qəhrəman kimi doğma yurdu Naxçıvana gəlir. Qəhrəmanı tanıyanlar onu qarşılamaq üçün Quluzadə ailəsinin ocağına toplaşır.

Çox keçmir ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən müharibəsi iştirakçısı", "İgidliyə görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunur. Sinəsində fəxrlə gəzdirdiyi bu orden və medallar gənc zabitə böyük stimul verir. Nihat 2021-ci ildə baş leytenant hərbi rütbəsini alır və "Komando" kursunu bitirərək Azərbaycan Respublikasının Silahlı Qüvvələrində komando kimi xidmətini davam etdirir.

Nihat hər məzuniyyətində doğma yurduna üz tutur. Ailəsi ilə görüşəndən sonra getdiyi ilk yer isə şəhid ailələri olur. Şəhid ailələrini ziyarət etmək, onların dərdinə şərik olmağı hər zaman özünə borc bilən Nihat deyirdi ki, şəhidlik çox yüksək mərtəbədir, hər adama qismət olmur. Onda Nihatın, bəlkə də, ağlına gəlmirdi ki, bir gün Quluyevlər ailəsi də onun şəhadəti ilə şəhid ailəsi olacaq...

2023-cü il sentyabrın 19-dan başlayaraq Azərbaycan Respublikasının Silahlı Qüvvələri Qarabağ iqtisadi rayonunda lokal xarakterli antiterror tədbirlərinə başlayır. 23 saat davam edən əməliyyatlar zamanı Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus döyüş mövqeləri, hərbi təyinatlı avtomobillər, artilleriya və zenit-raket qurğuları, radioelektron mübarizə stansiyaları və digər hərbi təyinatlı vasitələr zərərsizləşdirilir. Qondarma rejim və terror qruplaşmaları təslim olmağa, silahı yerə qoymağa məcbur edilirlər. Bununla da Azərbaycanın ərazi suverenliyi tam bərpa olur. Minlərlə şəhidin uğrunda canını verdiyi, son mənzilə bükülüb yola salındığı üçrəngli Azərbaycan Bayrağı Xocalıda, Xankəndidə, bütöv Azərbaycanda dalğalanır. Komando baş leytenant Nihat Quluzadə isə antiterror əməliyyatı zamanı müqəddəs şəhidlik zirvəsinə yüksəlir...

Sentyabrın 21-i Naxçıvan əhli yenidən yollara axışır. Bu dəfə şəhid övladını qarşılamaq üçün. 3 il öncə qazi kimi qayıtdığı doğma yurduna bu dəfə ən yüksək mərtəbəyə ucalan şəhid kimi gəlir Nihat.

Sən görmüşdün şəhid müqəddəsliyini. Axı sənə tanış idi minlərlə həmvətənin əllərində bayraq, dillərində "Şəhidlər ölməz, Vətən bölünməz" nidaları. Sən də qəlbində Vətən eşqi, bağrında dost yanğısı ilə yürümüşdün onlarla şəhid cənazəsi arxasından. Bəlkə də, içdən-içə arzulamışdın bu müqəddəs zirvəni. Uğrunda canını fəda etdiyin torpağın, xalqın səni doğma övladı kimi basdı bağrına. Sənin şərəflə daşıdığın hərbi formadan geyinən balacalar, analar, qızlar, gəlinlər, səni özünə qəhrəman seçmiş oğullar – hamı yollara düzülüb səni qarşıladı, Nihat.

Qısa ömrə böyük qəhrəmanlıqlar sığdırmaq hamıya qismət olmur. Hər kəs yaddaşlarda əbədi yaşamır. Azərbaycan var olduqca siz də yaşayacaqsınız, şəhidim. Aldığımız hər nəfəsdə, qazandığımız hər uğurda, Qarabağda açan hər çiçəkdə, yenidən evinə qayıdan hər həmvətənimiz qəlbində sizi anacaq, sizinlə qürur duyacağıq. Xatirələrdə gözəl qalacaqsınız. Sağ olasan, Vətən!

**Lalə ALLAHVERDİYEVA**




# Prezident Seçkiləri Günüdür




## Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən media nümayəndələrinə "Prezident seçkilərində medianın rol və vəzifələri" mövzusunda onlayn seminar keçirilib




2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar müxtəlif seçki subyektlərini əhatə edən silsilə maarifləndirmə tədbirləri davam etdirilir.

Mərkəzi Seçki Komissiyası (MSK) və Medianın İnkişafı Agentliyinin (MEDİA) birgə təşkilatçılığı ilə yanvarın 18-də Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən media nümayəndələrinə "Prezident seçkilərində medianın rol və vəzifələri" mövzusunda onlayn seminar keçirilib.

Seminarın təşkilində əsas məqsəd media nümayəndələrinin prezident seçkilərində məlumatlılığının artırılması və fəaliyyətlərinin səmərəliliyinin daha da yüksəldilməsidir.

Seminarda açılış nitqi ilə çıxış edən Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədli seçki prosesini işıqlandıran zaman jurnalistlərin hansı prinsiplərə əsaslanmalı olduqlarını qeyd edib. "Media haqqında" Azərbaycan Respublikası Qanununun müvafiq maddələrinə diqqətçəkən Natiq Məmmədli



media nümayəndələrinin, eyni zamanda peşə etika qaydalarına riayət etmələrinin vacibliyini vurğulayıb.

Onlayn seminarda çıxış edən Mərkəzi Seçki Komissiyasının üzvü İlkin Şahbazov Azərbaycan Respublikası Prezidenti seçkilərində seçkiqabağı təşviqata dair ümumi tələblər, seçkiqabağı təşviqat subyektləri, onların hüquq və vəzifələrindən danışıb. Qeyd edib ki, MSK nəzdində fəaliyyət göstərən və əsasən, jurnalistlərdən ibarət olan mətbuat qrupu mediada seçkiqabağı təşviqat üçün Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydalara riayət olunmasına nəzarəti həyata keçirir.

Sonra ödənişli və ödənişsiz əsaslarla aparılan seçkiqabağı təşviqat prosesində media subyektlərinin rol və vəzifələrindən danışan MSK Katibliyinin Media və kommunikasiya şöbəsinin müdiri Şahin Əsədli iştirakçılara, həmçinin seçki prosesinin ictimailəşdirilməsi, aşkarlığın və şəffaflığın təmin olunması, eləcə də seçkiqabağı təşviqat mərhələsində və səsvermə günü medianın fəaliyyəti barədə ətraflı məlumat verib.

Seminarın sonunda jurnalistlərin sualları cavablandırılıb və onları maraqlandıran məsələlərə aydınlıq gətirilib.

## Daxili İşlər Nazirliyində seminar-müşavirə olub





*Fevralın 7-nə təyin olunan prezident seçkilərində polis əməkdaşlarının xidməti fəaliyyətinin təkmilləşdirilməsinə dair seminar-müşavirə keçirilib.*

Mərkəzi Seçki Komissiyası (MSK) və Daxili İşlər Nazirliyi tərəfindən birgə təşkil olunan seminar-müşavirədə MSK-nın, nazirliyin, şəhər və rayon polis idarələrinin nümayəndələri və dairə seçki komissiyalarının sədrləri iştirak ediblər.

Tədbirin təşkilində əsas məqsəd seçki qanunvericiliyin və polisin üzərinə düşən vəzifələrin izah edilməsi olub.

Seminar-müşavirədə Mərkəzi Seçki Komissiyasının üzvü Fuad Cavadov seçki qanunvericiliyi, seçki sistemi, səsvermə prosesi, onun mərhələləri və müddətləri, seçki komissiyaları və polis orqanlarının birgə fəaliyyəti mövzularında çıxış edib.

Daxili İşlər Nazirliyinin nümayəndələri Sənan Əliyev və Cavid Cəfərov seçki kampaniyası dövründə və səsvermə günü ictimai qaydanın təmin edilməsi ilə bağlı polis əməkdaşlarının hüquq və vəzifələrindən danışıb. Onlar çıxışlarında səsvermədən sonra seçki bülletenlərinin və digər sənədlərin dairə və Mərkəzi Seçki Komissiyasına gətirilməsi zamanı yüksək təhlükəsizlik tədbirlərinin görülməsinin vacibliyini vurğulayıb.

Mərkəzi Seçki Komissiyasının katibliyinin əməkdaşı Cavid Zeynalov isə seçki subyektləri, onların hüquq və vəzifələri, seçki subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilənin yolverilməzliyi barədə danışıb.

Seminar-müşavirənin sonunda müxtəlif mövzular ətrafında müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin mətbuat xidməti***

## Dairə Seçki komissiyalarında treninqlərə başlanılıb



Yanvarın 17-də 4 saylı Naxçıvan Şəhər Dairə Seçki Komissiyasında məntəqə seçki komissiyalarının üzvləri üçün treninqlərə start verilib. Treninq proqramları iki mərhələdə təqdim olunub.

Birinci mərhələ saat $11^{00}$-da, ikinci mərhələ isə $15^{00}$-da başlayıb. 4 saylı Naxçıvan Şəhər Dairə Seçki Komissiyasının sədri Çingiz Həsənli bildirib ki, adıçəkilən seçki dairəsi 42 məntəqəni əhatə edir. Treninqlər, ümumilikdə, 4 gün davam edəcək və gün ərzində 12 məntəqə üzvü treninqdə iştirak edəcək.



Treninqi müşahidə edən beynəlxalq müşahidəçi Kristofer Barber "Şərq qapısı" qəzetinə müsahibəsində deyib: "Azərbaycan üzrə 26 qrupdan ibarət müşahidəçilər fəaliyyət göstərir. Biz isə Naxçıvan üzrə cavabdehik. Burada olduğumuz müddət ərzində dövlət orqanları, məntəqələr, siyasi partiyaların seçki ilə bağlı hansı işlər gördüyünü öyrənmək məqsədilə müxtəlif görüşlər keçiririk. Bununla seçkiyə hazırlığın hansı səviyyədə olduğunu müəyyən edirik. Düşüncələrimizi tərəfsiz və obyektiv olaraq şəxsi müşahidələrimiz əsasında ifadə edirik. ATƏT-in ilkin hesabatında bizim seçki kampaniyaları ilə bağlı müşahidələrimizə də yer veriləcək. Seçkidən sonrakı prosesi də müşahidə etmək məqsədilə fevralın 15-dək Naxçıvanda olacağıq".

***

1 saylı Şərur-Sədərək Seçki Dairəsində isə gün ərzində 12 məntəqə seçki komissiyasının 72 üzvünə treninq keçirilib. Treninqdə seçki günü seçki prosesinin həyata keçirilməsi, seçki bülleteninin, səsvermə bitdikdən sonra yekun səsvermə protokolunun doldurulması qaydaları haqqında məlumat verilib. Seminarda slaydlardan istifadə edilib, əyani olaraq sənədlərin işlənmə qaydası göstərilib.

Qeyd edək ki, analoji tədbir 2 saylı Şərur-Kəngərli, 3 saylı Babək-Şahbuz- Kəngərli, 5 saylı Babək-Naxçıvan-Culfa Seçki dairələrində, yanvarın 18-də isə 6 saylı Ordubad-Culfa Seçki Dairəsində keçirilib.

**Xəbərlər şöbəsi**

## Sərhəd bölgəsi Sədərəkdə seçkilərə hazırlıq yüksək səviyyədə həyata keçirilib



Bu il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri həm də onunla fərqlənir ki, bu seçkilər ilk dəfə olaraq suverenliyini tam bərpa etmiş ölkəmizin bütün ərazisini əhatə edəcək. Artıq ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da seçkilərə hazırlıq işləri yüksək səviyyədə həyata keçirilir. Muxtar respublikamızın ucqar sərhəd bölgəsi, yağı düşmənlə üzüzə mərdanə dayanan Sədərəkdə də gördüklərimiz bunu bir daha təsdiq etdi.

1 saylı Şərur-Sədərək Seçki Dairəsinin 1-36 saylı məntəqə seçki komissiyası Sədərək rayonunun Heydərabad qəsəbə tam orta məktəbində yerləşir. Məntəqə seçki komissiyasının sədri Azər Abdullayev bildirdi ki, bu seçki məntəqəsi üzrə 1219 seçici qeydə alınıb. Bu seçicilərdən 70 nəfəri ilk dəfə seçkilərdə iştirak edəcək.



Qeyd edək ki, burada seçki prosesinin tam şəffaf və demokratik şəraitdə keçməsi üçün hər cür şərait yaradılıb. Məntəqə lazımi avadanlıq və metodiki vəsaitlərlə, yanğın təhlükəsizliyi, fasiləsiz rabitə və elektrik enerjisi ilə təchiz olunub. Həmçinin məntəqədə seçki qutuları və lazımi inventar avadanlıqları qoyulub, seçici siyahıları və məlumat lövhələri asılıb. Seçki məntəqələrinə mürəkkəb, ultrabənövşəyi lampalar və digər zəruri vəsaitlər də gətirilib. Katib və üzvlər, habelə seçkini izləyəcək müşahidəçilər üçün yerlər müəyyənləşdirilib. Seçki məntəqələrinin ərazisində seçkiqabağı təşviqatın aparılması və təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün müvafiq yerlər müəyyənləşdirilib.

1-37 saylı seçki məntəqəsi isə rayon Mədəniyyət Sarayının inzibati binasında yerləşir. Məntəqə seçki komissiyasının katibi Kəmalə Əliyeva bildirdi ki, bu məntəqə üzrə 1065 seçici sayı müəyyənləşib. Onlardan 3 nəfəri ilk dəfə səsvermədə iştirak edəcək. Öyrəndik ki, buradakı seçki məntəqəsi



də lazımi avadanlıq və metodiki vasitələrlə təchiz edilib, ərazidə seçkiqabağı təşviqatın aparılması üçün lazımi şərait yaradılıb.

Hər iki seçki məntəqəsində müşahidə etdiklərimizə əsasən deyə bilərik ki, muxtar respublikamızın digər bölgələrində olduğu kimi, Sədərək rayonunda da seçicilərin rahat səs verməsi üçün hər cür şərait yaradılıb. Bu isə seçkilərin azad, demokratik və şəffaf şəkildə keçirilməsinə, seçicilərin öz iradələrini sərbəst şəkildə ifadə etmələrinə şərait yaradacaqdır.

**Səbuhi HƏSƏNOV**

# Seçki marafonu

## 7 fevral 2024-cü il – növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri günüdür

# Prezident seçkiləri – 2024

**Prezident seçkiləri Azərbaycan Respublikasında 125 seçki dairəsində keçiriləcəkdir ki, bu dairələrdən 6-sı Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərir**

## Hörmətli seçicilər!

Seçki Məcəlləsi hər bir seçicinin harada olmasından asılı olmayaraq, səsvermə hüququnun həyata keçirilməsinə tam təminat verir. Seçki Məcəlləsində seçici siyahılarının tərtib olunması ilə əlaqədar ayrıca bir fəsil və 4 maddə (45-48-ci maddələr) nəzərdə tutulmuşdur.

Aktiv seçki hüququna malik olan bütün vətəndaşlar seçici siyahılarına daxil edilirlər.

● Seçki günündədək **18 yaşı tamam olan hər bir vətəndaş** yaşayış yeri üzrə seçıcı siyahısına daxil edilir.

Əgər **seçici yaşayış yerini dəyişibsə,** müvafiq seçki məntəqəsinin ərazisində seçkilərin rəsmi dərc olunması günündən əvvəlki **12 ayın azı 6 ayı ərzində** o ərazidə yaşaması faktı əsas götürülür və həmin şəxs siyahıya daxil edilir

● Hərbi qulluqçuların seçki hüquqlarının təminatı ilə əlaqədar Seçki Məcəlləsinin 47.3-cü maddəsində qeyd olunur ki, **hərbi hissədən kənarda yaşayan hərbi qulluqçular** seçici siyahılarına yaşayış yeri üzrə ümumi əsaslarla daxil edilirlər. **Hərbi hissələrdə yerləşən hərbi qulluqçuların,** onların ailə üzvlərinin və hərbi hissələrin hüdudlarında yaşayan digər seçicilərin seçici siyahılarına daxil edilməsi üçün Azərbaycan Respublikası vətəndaşlarının yaşayış yeri və olduğu yer üzrə qeydiyyatını aparan orqanların ya da hərbi hissələrin, yaxud hərbi xidmətdə və ya hərbi çağırış üzrə qulluqda olan vətəndaşların hərbi hissənin ştat cədvəlinə daxil edilməsi barədə hərbi hissə komandirinin əmri ilə təsdiqlənən daimi və ya daha çox yaşama faktı əsas götürülür. Belə olduqda seçki məntəqələri müvafiq dairə seçki komissiyasının qərarına uyğun olaraq hərbi hissələrin komandirləri tərəfindən səsvermə gününə azı 5 gün qalmış yaradılır. Sərhəd mühafizə orqanlarının hərbi qulluqçuları və hərbi münaqişə zonasında yerləşdirilən hərbi qulluqçular, Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi hallarda xüsusi rejim şəraitində qulluq edən hərbi qulluqçular onların hərbi hissələrində yaradılan seçki məntəqələrində səs verirlər.

● Seçici yalnız bir seçki məntəqəsi üzrə seçici siyahısına daxil edilir. Seçici bilərəkdən birdən çox seçici siyahısına daxil edilərsə, o, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq məsuliyyətə cəlb edilir.

Səsvermə günü **xəstəxanalarda, sanatoriyalarda, istirahət evlərində olan seçicilər** üçündə yerləşdikləri həmin binalarda seçkilərə 5 gün qalmış seçki məntəqəsi yaradılır və ya yaxınlıqda seçki məntəqəsi varsa, həmin təşkilatın rəhbərliyinin tərtib etdiyi siyahı əsasında o məntəqədə siyahıya daxil edilirlər

● **İstintaq zamanı barələrində həbs qəti imkan tədbiri seçilən və inzibati qaydada saxlanılan vətəndaşlar** məntəqə seçki komissiyaları tərəfindən ayrıca seçici siyahılarına daxil edilirlər. Bu cür məlumatlar səsvermə gününə ən azı 2 gün qalmış vətəndaşın həbsi haqqında qərar çıxarmış müvafiq məhkəmələr və ya vətəndaşın inzibati qaydada saxlanılması haqqında qərar qəbul etmiş müvafiq icra hakimiyyəti orqanı tərəfindən məntəqə seçki komissiyalarına təqdim edilir. Həmin məlumatda şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin tam göstəriciləri əks edilməlidir.

● **Barələrində məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olmayan və həbs qəti imkan tədbiri seçilmiş şəxslər** istintaq təcridxanasının rəhbərliyinin məntəqə seçki komissiyasına təqdim etdiyi məlumat əsasında seçici siyahısına daxil edilir.

● **Xəstə olan, hərəkət edə bilməyən vətəndaşlarımız** da səsvermədən kənarda qalmır, belə ki, yaxın qohumların və ya qonşuların məlumatı əsasında o şəxs siyahıya daxil edilir və daşınan qutu vasitəsilə səs verir.




**Adınızın seçici siyahısında olub-olmadığını və ümumiyyətlə, seçki prosesində sizi maraqlandıran suallarla əlaqədar məlumatları Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının internet saytlarından *(www.msk.gov.az, www.cec.gov.az, www.infocenter.gov.az)* və ya aşağıdakı telefon nömrələri ilə əlaqə saxlamaqla öyrənə bilərsiniz:**

**- 1 saylı Şərur-Sədərək Dairə Seçki Komissiyası – 542-38-77**

**- 2 saylı Şərur-Kəngərli Dairə Seçki Komissiyası – 542-34-22**

**- 3 saylı Babək-Şahbuz-Kəngərli Dairə Seçki Komissiyası – 541-39-88**

**- 4 saylı Naxçıvan Şəhər Dairə Seçki Komissiyası – 545-74-23**

**- 5 saylı Babək-Naxçıvan-Culfa Dairə Seçki Komissiyası – 546-01-14**

**- 6 saylı Ordubad-Culfa Dairə Seçki Komissiyası – 547-16-41**

Vətəndaş seçici siyahısına daxil edilməməsi, seçici siyahısında onun barəsində və ya digərlərinin barəsində göstərilməli olan məlumatlarda aşkar etdiyi səhvlər və ya yanlışlıqlar barəsində yuxarıda qeyd olunan ünvanlara məlumat verə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsində və Seçki Məcəllənin 14-cü maddəsində nəzərdə tutulan hallar istisna olmaqla Milli Məclisə seçkilərin, prezident seçkilərinin, bələdiyyələrə seçkilərin, referendumun keçirilməsi günü (həmin gün də daxil olmaqla) 18 yaşına çatmış Azərbaycan Respublikasının hər bir vətəndaşının seçmək, referendumda səs vermək, seçkilərin (referendumun) gedişini müşahidə etmək, seçkiqabağı (referendumqabağı) təşviqatda iştirak etmək, Seçki Məcəllə ilə nəzərdə tutulmuş seçki hərəkətlərində və referendumun hazırlanması ilə bağlı hərəkətlərin həyata keçirilməsində iştirak etmək hüququ – **aktiv seçki hüququ vardır**

Seçki Məcəlləsinin 12.4-cü maddəsində aktiv seçki hüququ ilə bağlı **bəzi məhdudiyyətlər** nəzərdə tutulmuşdur. Qeyd edilir ki, **məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslər** seçkilərdə, habelə referendumda iştirak etmək hüququndan – aktiv seçki hüququndan məhrumdurlar.

Seçici siyahıları ümumi tanışlıq üçün təqdim edildikdən sonra seçki məntəqəsinin ərazisində məskunlaşan və hər hansı səbəbdən siyahılara daxil edilməyən seçicilər şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənəd, zərurət olduqda isə, həmçinin seçicinin həmin seçki məntəqəsi ərazisində daha çox yaşamasını təsdiq edən sənədlər əsasında məntəqə seçki komissiyası tərəfindən seçici siyahılarına əlavə edilirlər.

### Ümumi seçki hüququ

İrqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və başqa ictimai birliklərə mənsubiyyətindən və ya digər statusundan asılı olmayaraq, Azərbaycan Respublikası vətəndaşlarının seçmək, seçilmək və referendumda iştirak etmək hüququ vardır.

### Bərabər seçki hüququ

Bu hüquq həm seçici səslərinin bərabərliyini, həm də namizədlər üçün imkan bərabərliyini özündə cəmləşdirir. Belə ki, Seçki Məcəlləsinin 4-cü maddəsində qeyd olunmuş həmin prinsipə əsasən hər bir seçicinin bir səsi var və hər bir səs eyni hüquqi qüvvəyə malikdir.

### Birbaşa seçki hüququ

Vətəndaşlar seçkilərdə namizədin lehinə, referenduma çıxarılan məsələnin lehinə və ya əleyhinə şəxsən səs verirlər. **Başqa şəxslərin yerinə səs vermək qadağandır. Başqalarının əvəzinə səs verən və ya bunun üçün şərait yaradan vətəndaşlar Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və ya İnzibati Xətalar Məcəlləsində göstərilən məsuliyyətə cəlb olunurlar.**

**Azərbaycan Respublikası Prezidentinin seçkilərində iştirak edərkən Azərbaycan Respublikasının vətəndaşları yalnız bir namizədin lehinə səs verə bilərlər**

### Gizli səs vermək hüququ

Gizlilik seçicinin yalnız hüququ deyil, həm də vəzifəsidir. Səsvermə fərdi olmalıdır. Ailə səsverməsi və bir seçici tərəfindən digər bir səs üzərində nəzarətin hər hansı forması qadağandır.

Seçki Məcəlləsinin 6-cı maddəsində göstərilir ki, seçkilər və referendum zamanı səsvermə gizli olmalıdır, bu isə seçicilərin iradəsinin ifadəsi üzərində hər cür nəzarəti istisna etməlidir.

### Sərbəst seçki hüququ

Bu hüquq seçicilərin öz seçimlərini azad ifadə etmək hüququnu nəzərdə tutur.

Seçki Məcəlləsinin 2.2-ci maddəsində qeyd edilir ki, Azərbaycan Respublikası vətəndaşlarının seçkilərdə və referendumda iştirakı azad və könüllüdür. Seçkilərdə və ya referendumda iştirak edib-etməməyə məcbur etmək məqsədilə heç kəsin Azərbaycan Respublikası vətəndaşına təzyiq göstərmək hüququ yoxdur və heç kəs onun öz iradəsini azad ifadə etməsinə mane ola bilməz.

## Ucqar rayonumuzda seçkilərə hazırlıq prosesi uğurla aparılır

Bu il fevralın 7-də ərazi bütövlüyü, suverenliyi tam təmin olunmuş qalib xalqın nümayəndələri kimi ilk dəfə prezident seçkilərində iştirak edəcəyik. Seçkilərin elan olunmasından ötən müddət ərzində Naxçıvan Muxtar Respublikasının dairə, məntəqə seçki komissiyaları tərəfindən prosesin qanunvericiliyə uyğun tam şəffaf, demokratik şəkildə keçirilməsi üçün müvafiq tədbirlər həyata keçirilir. Seçki təbliğatı və təşviqatının aparılması üçün lazımi imkanlar yaradılıb. Artıq yanvarın 17-dən başlayaraq məntəqə seçki komissiyasının üzvləri üçün treninqlərə də start verilib.

3 saylı Babək-Şahbuz-Kəngərli Seçki Dairəsi üzrə 60 seçki məntəqəsi yaradılıb. 3-47 saylı seçki məntəqəsi Şahbuz rayonunun Kükü kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin binasında yerləşir. Məntəqə sədri Mayis Məmmədovun verdiyi məlumata görə, bu seçki məntəqəsi üzrə 915 seçici qeydiyyata alınıb, 54 nəfər ilk dəfə səsvermə hüququndan istifadə edəcək. Kəndin ən yaşlı seçicisi isə 1932-ci il təvəllüdlü Anaxanım Səfərovadır. Bu günədək məntəqəyə daşınan qutu ilə bağlı müraciət daxil olmayıb.



Məntəqə sədri onu da bildirdi ki, seçkilərin yüksək səviyyədə keçirilməsi üçün lazımi şərait yaradılıb. Bu məqsədlə məntəqədə səsvermə kabinələri ayrılıb, daşınan və daşınmaz seçki qutuları qoyulub.

Həmçinin seçicilərin maarifləndirilməsi üçün məlumat lövhələri yerləşdirilib, seçki məntəqəsindən kənarda səs vermək üçün ərizə formaları hazırlanıb, şəffaflığın təminatına xidmət edən ultrabənövşəyi lampalar, möhür, generator və digər ləvazimatlarla təchizat həyata keçirilib.

3-52 saylı seçki məntəqəsi isə Ağbulaq kənd tam orta məktəbinin binasında yaradılıb. Məntəqə sədri Elşən Cəfərov bizimlə söhbət zamanı bildirdi ki, bu seçki məntəqəsi üzrə 299 seçici qeydiyyata alınıb, onlardan 14-ü ilk dəfə səsvermədə iştirak edəcək. Məntəqənin ən yaşlı seçicisi isə 1933-cü ildə dünyaya göz açan Əfruz İmanovadır. Seçkilərin obyektiv və şəffaf şəkildə keçirilməsi üçün bütün lazımi inventarlar və ləvazimatlarla təminat reallaşdırılıb.

Ümumilikdə, hər iki məntəqə üzrə apardığımız müşahidələr belə deməyə əsas verir ki, muxtar respublikamızın bütün şəhər və rayonlarında olduğu kimi, ucqar bölgəmiz Şahbuzda da prezident seçkilərinə hazırlıq yüksək səviyyədədir. Beynəlxalq standartlara uyğun, qanunvericilik əsasında yaradılan əlverişli şərait fevralın 7-də həm yerli, həm də beynəl-




xalq müşahidəçilərin prosesi düzgün şəkildə izləməsinə imkan verməklə seçkinin tam şəffaf və obyektiv keçirilməsinə xidmət edəcək.

Nail ƏSGƏROV





*Şəhidlik özü də*
*bir ucalıqdır,*
*O da qismət oldu*
*Azərbaycana.*

# Ədəbi mühitimiz və Yanvar hadisələri

Azadlıq uğrunda mübarizəmizin böyük faciələr və itkilərlə dolu tarixi var ki, 90-cı ilin 20 Yanvar faciəsi bu tarixin mühüm bir hissəsidir. Bu faciə azadlıq, müstəqillik yolu tutmuş xalqımızın yenilməz iradəsinin nümayişi, rus imperiyasına qarşı etirazın son həddi idi. Baş vermiş qanlı hadisə dərhal ədəbiyyatımızda əks-səda tapdı, insanlığa qarşı görünməmiş bir cinayət, soyqırımı kimi ittiham olundu. Hələ şəhidlərimizin qan izləri küçə və meydanlardan təmizlənməmiş "Biz qolumuzdakı zəncirləri qırmaq istəyirdik, amma özümüzü qırdılar... Məhkəməsiz, sübutsuz, dəlilsiz, günahsız qırğın oldu, yanvar qırğını", – deyə qan ağlayan istiqlal şairi Xəlil Rzanı da tutub zindana saldılar. Bu, təcavüzə məruz qalmış bir xalqın həm də söz deyən dilinin, yazan əlinin buxovlanması, susdurulması cəhdi idi. Lakin həmişə olduğu kimi, bu tarixi məqamda da ədəbiyyatımız xalqın böyük müsibətlərini əks edirdi, onun həyəcan və ümidləri ilə yaşadı. Bu mövzuda çoxlu sayda əsərlər yazıldı.

Azərbaycanın ayrılmaz parçası olan Naxçıvanda da bu mövzuda çoxlu ədəbi nümunələr yaradılıb. Elman Həbib, Kəmalə Ağayeva, Əbülfəz Muxtaroğlu, Vaqif Məmmədov, Xanəli Kərimli, Asim Yadigar, İbrahim Yusifoğlu, Həsənalı Eyvaz, Qafar Qərib, Elbəyi Maqsudov, Rahilə Elçin, Əbülfəz Ülvi, Elxan Yurdoğlu və başqaları həmin şənbə gecəsinin hadisə və dəhşətlərini vətəndaş yanğısı ilə qələmə alıb, şeirin çevik və operativ imkanlarını bir daha nümayiş etdiriblər. Həmin nümunələr isə o günlərin hökmündən doğan yaradıcılıq nümunələri kimi xalqa çatdırılır, dillər əzbərinə çevrilirdi. Şübhəsiz ki, ilk anlardan onun geniş bədii inikasını vermək qeyri-mümkün idi. Lakin bu hadisələri vaxtında qələmə almaq ona görə çox vacib idi ki, gələcəkdə ədəbiyyatın bu hadisə barədə nəsri, eposu bu ilk qələm təcrübəsindən başlanacaqdı.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair Əbülfəz Muxtaroğlu o günlərdə yazdığı "Ağlama" şeirində şəhidlərin lirik obrazı vasitəsilə bütöv bir xalqın, bir torpağın fəryadını əks etdirmiş, Vətənimizin və xalqımızın başına gətirilən müsibətləri, törədilən faciələri, Vətən uğrunda aparılan mübarizələri çox real, inandırıcı, həm də konkret faktlar əsasında təsvir etmişdir.

Yeni dövr Azərbaycan şeirində vətəndaşlıq lirikasının əsas yaradıcılarından biri olan şair Xanəli Kərimlinin bu mövzuda ən yaxşı əsərlərindən biri "Ağrı" və "Bütövlük" poemalarıdır. Bu poemalarda şəhidlik mövzusu daha geniş miqyasda həllini tapır. 20 Yanvar hadisəsi şairə illər uzunu qəlbində və şüurunda yığılıb qalmış hiss və fikirləri, dərin kök salmış həqiqətləri ifadə etməyə əsas verir. Bununla belə poemada mübarizəmizin çox mühüm bir məqamı, imperiya ordusu ilə xalqımızın üzləşməsi, mərd oğul və qızlarımızın onun qarşısında diz çökməməsi faktı qələmə alınmışdır.

Şeir və publisistikası ilə oxuculara yaxşı tanış olan mərhum Vaqif Məmmədovun "Sədərək harayı" kitabında isə 1990-cı ilin 19 yanvarında erməni təcavüzü zamanı Sədərəkdə törədilmiş vəhşiliklər, doğma torpağın mərdliklə müdafiə olunması öz əksini tapır. Şair, haqqında bəhs etdiyimiz Sədərək döyüşlərinin bilavasitə iştirakçısı, baş verən hadisələrin təhkiyəçisidir. O, çox mühüm, vacib mətləblərdən söz açır, törədilmiş faciənin dəhşətlərini, milli faciə səviyyəsində ümumbəşəriliyini poetik dillə oxucuya çatdırır.

Naxçıvan Yazıçılar Birliyinin sədri, şair Asim Yadigarın "Naməlum əsgər", "Şəhidlik", "Ən uca zirvə" və sair şeirləri ideya və mahiyyəti ilə erməni qəsbkarlarına qarşı mübarizənin bədii ədəbiyyatda, poeziyada təcəssümü yolunda şairin uğurlu nümunələri kimi qiymətləndirilməyə layiq şeirlərdəndir:

*Məzarlar önündə susdum, kiridim,*
*Şəhid məzarları durub yan-yana.*
*Şəhidlik özü də bir ucalıqdır,*
*O da qismət oldu Azərbaycana.*

Həmin günlərdə ermənilərin "Şanlı sovet ordusu"nun əsgər və zabitlərinin gözləri önündə onların silahlarından istifadə edib dinc Sədərək əhalisini qanına bələyən döyüşləri görəndə şair İbrahim Yusifoğlunun da ürəyini sızladan o ağrılar misralara çevrildi. Şair yazdığı kimi: "İllər boyu üzərimizə tuşlanan silahların tətikləri çəkildi, sinəsi odlanan da oldu, şəhid olan da. Mənim isə inamım güllələndi".

*O qara yanvarda oğuz elinə,*
*Qorxunc silahlarla od ələdilər.*
*"Qardaşlıq beşiyi" sovet elinə*
*Mənim inamımı güllələdilər.*

"Şəhid qanlı lalələr", "Öyünür Vətən" kitablarında isə mənfur erməni millətinin Azərbaycan torpaqlarına təcavüzü zamanı bölük komandiri kimi döyüşlərdə düşmənə qarşı vuruşmuş hərbçi-şair Vaqif Əsrarın şəhidlərə həsr olunmuş şeirlərinin bir qismi və "Mənim şəhid olan kəndim" poemasında baş verən hadisələrə poetik münasibət bildirilir.

Şair Maarif Təmkinin ilk dövr və sonrakı illər yaradıcılığında Vətən mövzusu, Azərbaycana tükənməz sevgi ön mövqedə dayanır. Filologiya elmləri doktoru, professor mərhum Hüseyn Həşimlinin yazdığı kimi: "Maarif Təmkin yaşadığımız günlərin ovqatını poetikləşdirəndə də, Qarabağ nisgilini, qaçqın, şəhid, köçkün kədərini sətirlərdə canlandıranda da, doğma yurda tükənməz sevgisini bədii müstəviyə gətirəndə də, bir sözlə, hansı mövzuya üz tutursa, tutsun, həmişə əsl vətəndaşlıq mövqeyindən çıxış edir".

Ana qədər məhəbbət bəslədiyi doğma Vətənə düşmən təcavüzü digər şairlər kimi, Elxan Yurdoğlunun da qəlbini ehtizaza gətirmişdir. Vətənpərvər şair Elxan Yurdoğlunun "Ağlayan – ağladan gün" adlı şeiri xalqı şəhidlərin nigaran ruhlarının rahatlıq tapması üçün qisas almağa səsləyir:

*Şanlı tariximin qanlı səhifəsi...*
*Şəhid anasının yanıqlı səsi,*
*Qocalı, cavanlı – bütün hər kəsi*
*Qisas duyğusuna bağlayır bu gün.*

Yanvar hadisələrindən artıq 34 il keçir. Bu müddətdə bədii nəsrimizdə – Akif Axundov, Bayram İsgəndərli, Güllü Məmmədova, mərhum Rafiq Babayev əsərlərində yanvar hadisələrini əks etdirmişlər. Filologiya elmləri doktoru, yazıçı-publisist mərhum Həmid Arzulu "Qara xəncər" romanında 1988-90-cı illərdə Azərbaycanda, o cümlədən Naxçıvanda baş verən milli oyanış təlatümləri fonunda bəzi insanların qanunlardan necə sui-istifadə etdiklərindən, xarici qüvvələrin maddi sərvətlərimizi talan etmək cəhdlərindən və ölkəyə yeni ruh yüksəkliyi, azadlıq, müstəqillik gətirməkdə olan gənclərimizin mübarizəsindən bəhs edir. Yazıçı Güllü Məmmədova "Şəhid balası" hekayəsində hər gün atasının yolunu gözləyən, onun şəhid olduğunu bilməyən, hər qapı döyüləndə "atam gəldi", – deyib qapıya yüyürən, lakin arzusu gözündə qalan körpənin dərin kədərinin, ürəyindəki ağır nisgilin təsvirini həyəcansız oxumaq mümkün deyil.

Belə bir cəhəti də qeyd etmək vacibdir ki, ilk vaxtlar 20 Yanvar faciəsinə müraciətin ən fəal janrı publisistika olmuşdur. Hadisə baş verəndə ölkə informasiya blokadasına alınmış, Bakıda fövqəladə vəziyyət qadağaları qoyulmuşdu. Buna baxmayaraq, şair və yazıçılarımızın səsi radio, televiziyadan eşidilirdi. 20 Yanvar mövzusunda bir sıra publisist yazılar mətbuat səhifələrində dərc edildi. Muxtar respublikada dərc olunan "Şərq qapısı" qəzeti faciə ərəfəsindəki saylarını bütünlüklə bu mövzuya həsr etmişdir. Sonrakı aylarda və illərdə 20 Yanvar mövzusuna müraciət ziyalılarımız tərəfindən daha da inkişaf etdirildi. Bu mövzuya müraciət milli vətənpərvərlik ənənəsinə çevrilmişdi. Akademik İsa Həbibbəylinin "Tarix unudulmur", "Tarixin gerçək yaddaşı", "Azərbaycan qaynaqlarında ermənilərin yapdıqları qətliamlar", akademik İsmayıl Hacıyevin "Tarixin ağ ləkələri", "Erməni xəyanəti", AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru Hacı Fəxrəddin Səfərlinin "20 Yanvar – tarixin qanlı faciəsidir", fəlsəfə elmləri doktoru Məmməd Rzayevin "Tariximizin qan yaddaşı", tarix üzrə elmlər doktoru, dosent Elman Cəfərlinin "Faciələr tariximiz: rəqəmlərin dili ilə", "Erməni məsələsi"nin tarixi problem kimi yaranması və inkişafı" kimi məqalələri bu mövzuda yazılmış ən dəyərli nümunələrdəndir.

Vətən və xalq taleyi yaradıcılığının əsasını təşkil edən Azərbaycanın Əməkdar incəsənət xadimi, şair-publisist mərhum Elman Həbib də bu mövzuya biganə qalmamış, onlarla şeir və publisist məqalələr yazmışdır. Bu baxımdan filologiya üzrə fəlsəfə doktoru, dosent mərhum Lətif Hüseynzadənin "Günahsız tökülən qanlar" adlı məqaləsində Sovet imperiyasının siyasəti, tarixboyu Azərbaycan xalqının başına gətirilən müsibətlər, həmin dövrlərdə xalqımız haqqında ermənilərin və ermənipərəst qüvvələrin dünya ictimaiyyətinə çatdırdıqları qərəzli fikirləri əks olunmuşdur.

Yanvar hadisələri başqa bədii publisist yazılarda da təsirli bir üslubda qələmə alınmışdır. Filologiya elmləri doktoru, professor mərhum Yavuz Axundlunun "Qarabağ harayı" kitabı, yazıçı-publisist mərhum Hüseyn Həsənoğlunun "Dünyanın mənfur milləti: erməni", "Heykəlləşmiş qəhrəman" kitabları ən dəyərli nümunələrdəndir. Filologiya elmləri doktoru Kamran İmranoğlunun (Əliyev) "Sədərək döyüşləri", şair-publisist Vaqif Məmmədovun "Sədərək şəhidləri", şair Əbülfəz Muxtaroğlunun "Şahbuz şəhidləri", yazıçı-publisist Fərəc Fərəcovun "Culfa şəhidləri" kitabları da diqqətəlayiqdir. Bu kitablarda döyüşlər zamanı erməni işğalçıları tərəfindən vəhşicəsinə qətlə yetirilmiş insanların taleyindən bəhs edilir.

Naxçıvanda fəaliyyət göstərən ədəbi mühitin nümayəndələri bu faciənin səbəblərini düzgün müəyyənləşdirmiş, istər bədii, istərsə də publisist dillə erməni vəhşiliyini inandırıcı faktlarla əks etdirmişlər.

**Aypara BEHBUDOVA**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

## Xocalıya, Xankəndiyə, Şuşaya yağan qar

### *Bu qar o qardan deyil*



Fariz ƏHMƏDOV

Gecənin zülmət qaranlığında Şəhriyar gözlərini pəncərəyə zilləyib, ürkək baxışları ilə çayın o tayındakı ağ örpəyə bürünmüş Haçadağı seyr edirdi. Bu mənzərənin ecazkar sehrinə şahidlik edib mübhəm xəyallara dalanda yenə Xan nənəsini xatırladı. Yadına düşdü ki, isti bir yay günündə həyətdə oynayarkən gözləri nənəsinin ağaran saçlarına sataşmış və Şəhriyar titrək səslə soruşmuşdu: – Nənə! Saçların niyə belə ağarıb? – Qardı bala... yağıbdı illərimdən. Şəhriyar yüyürək Xan nənəsinin əlindən tutub evə sarı dartmış, gəl evə gedək, saçına qar yağmasın, – demişdi. Qırışmış əlləri ilə nəvəsinin saçına sığal çəkən Xan nənə Şəhriyarı bağrına basaraq ona izah etmişdi ki, bala, gəncliyin evi yoxdur, bu qar o qardan deyil, qoy yağsın.

Şəhriyarın atası müharibədə şəhid olan gündən bəri hər gün qış, yay demədən Xan nənənin saçlarına qar yağırdı. Şəhriyar nənəsinin acı-acı güldüyünü, bəzən isə gizlicə gildir-gildir gözyaşı tökdüyünü hiss edəndə artıq çox qəribə bir dünyada qonaq olduğunu hiss edirdi. Nənə göydə duman-çən gördüyü halda, nəvə əlvan səma görürdü. Bəs hansı haqlı idi, görəsən? Bəlkə də, ikisi də. Xan nənə yaşlandığından gözünə tor gəlmiş və görməsi zəifləmişdi, Şəhriyar isə bu zaman səmanı bütün maviliyi ilə seyr edirdi.

Sobanın içindəki odunun çırtıltısı və döşəkçənin üstündə yuxuya getmiş Məstan pişiyin xorultusu Şəhriyarı şirin xatirələrindən ayırdı. Artıq o hadisədən 30 il keçmiş, ürəyindəki itkilər isə daha da çoxalmışdı. Atası qarlı qış günlərində düşmənlə əlbəyaxa döyüşdə qəhrəmancasına şəhid olandan sonra Şəhriyarın bu ecazkar fəslə böyük sevgisi yaranmışdı. Uşaqlıqdan elə düşünürdü ki, bütün qəhrəman igidlər bu fəsildə şəhadətə qovuşur, bütün qəhrəmanların qəbrinə qar yağır.

Qar dənələri bəzən rəqs edərək, bəzənsə, əl-ələ verərək həyətdəki ağaca, torpağa, əşyaya qonur və bərq vurmağa başlayırdı. Bu qar dənələri Şəhriyarın ruhunun sirdaşı idi. Onları buludlar göndərmişdi zəfəri gətirsin deyə. Onları sevgilərə şahidlik etsinlər deyə Tanrı göndərmişdi. Onları uşaqlar sevinsin, qartopu oynasın deyə, Şaxta baba uzaq ölkələrdən xurcununa yığıb gətirmişdi.

Görəsən, o qar indi Xocalıya, Xankəndiyə, Şuşaya da yağır? – deyə düşünərkən qeyri-ixtiyari gözündən axan yaşlar mirvari kimi Şəhriyarın yanağına süzüldü. Pencəyini çiyninə salaraq həyətə çıxdı. Hər yer bəyaza bürünmüşdü. Əllərini göyə açıb qar dənəciklərinə toxundu. Son nəfəsi yetənəcən üzünü göyə tutub qışqırdı: "Bu qar o qardan deyil".

# Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi

## *2024-2025-ci tədris ili üçün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında Hüquqşünaslıq ixtisası üzrə əyani təhsilə kursantların qəbuluna dair elan*

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasına Hüquqşünaslıq ixtisası üzrə əyani təhsil üzrə 500 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə – Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 santimetr, çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda və həqiqi hərbi xidmətə yararlı olan, buraxılış siniflərində (11-ci sinifdə) oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək olan (2024-cü ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2024-cü ilin yanvar, aprel və iyul tarixlərində həqiqi hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum edilmiş (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmır.

Sənədlərin qəbulu 2024-cü il yanvar ayının 22-dən mart ayının 3-dək bazar günləri istisna olmaqla hər gün saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Kadrlar şöbəsində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

*- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);*

*- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında Daxili İşlər Nazirliyinə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd;*

*- yaşayış yeri üzrə tibb müəssisəsindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün sağlamlıq haqqında arayış;*

*- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);*

*- oxuduğu təhsil müəssisəsi tərəfindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün verilmiş xasiyyətnamə;*

*- 9x12 santimetr ölçüdə 2 ədəd, 4x6 santimetr ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).*

Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: (036) 545-08-10 (155,156,160).

Polis Akademiyasında təhsilə, eyni zamanda daxili işlər orqanlarında xidmətə qəbulun ilkin şərtlərinə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunur.

Abituriyentlər fiziki hazırlıq imtahanı (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma – çəkisi 80 kiloqramadək olanlar üçün – 10 dəfə, 80 kiloqramdan yuxarı olanlar üçün – 8 dəfə; qaçış 100 metr məsafəyə – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması – 20 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 20 dəfə) verməli, nazirliyin seçmə komissiyasından uğurla keçdikdən sonra Naxçıvan Qarnizonu Mərkəzi Hərbi-Həkim Komissiyasında müayinə olunub "Polis Akademiyasında təhsilə yararlı" olması barədə rəyi Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Kadrlar şöbəsinə təqdim etməlidirlər.

Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu anda abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və ya Naxçıvan Qarnizonu Mərkəzi Hərbi-Həkim komissiyalarından keçə bilməyən və ya Naxçıvan Qarnizonu Mərkəzi Hərbi-Həkim Komissiyasına göndəriş aldığı gündən 15 gün ərzində müvafiq rəyi təqdim etməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır.

Müsabiqəyə buraxılan abituriyentlərin siyahısı lll ixtisas qrupu fənləri üzrə qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə həmin mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİM-in qərarı əsasında seçilmiş abituriyentlərlə daxili işlər orqanlarında xidmətkeçmə haqqında müqavilə bağlanılır. 18 yaşına çatmayan şəxslərlə müqavilə onların qanuni nümayəndələrinin – valideynin, övladlığa götürənin və ya himayəçinin yazılı razılığı ilə bağlanılır. Bu şəxslərin Polis Akademiyasına qəbulu müqavilə bağlandıqdan sonra akademiya rəhbərinin əmri ilə rəsmləşdirilir və onlar daxili işlər orqanlarının əməkdaşı hesab olunurlar.

Daxili işlər orqanlarında xidmətkeçmə haqqında müqavilədə abituriyentlərin daxili işlər orqanlarına xidmətə könüllü daxil olması, təhsili başa vurduqdan sonra 7 (yeddi) il müddətində daxili işlər orqanlarında xidmət keçmək vəzifəsi, habelə təhsili başa vurduqdan sonra daxili işlər orqanlarında xidmət keçmək istəməyən, yaxud həmin müddətdə öz arzusu ilə daxili işlər orqanlarında xidmətdən çıxan şəxslərin Polis Akademiyasında onların hazırlanmasına çəkilmiş xərclərin əvəzini ödəmək öhdəliyi nəzərdə tutulur.

Daxili işlər orqanlarında xidmətkeçmə haqqında müqavilənin forması və bakalavrların hazırlanmasına çəkilmiş xərclərin hesablanması qaydası nazirlik tərəfindən müəyyən edilir.

Polis Akademiyasında bakalavrların hazırlanmasına çəkilmiş xərclər daxili işlər orqanlarında xidmətkeçmə haqqında müqavilə ilə müəyyən edilmiş müddətdə könüllü ödənilmədikdə məhkəmə qaydasında tutulur.

Polis Akademiyasına qəbul olunmuş kursantlar 14 avqust-14 sentyabr 2024-cü il tarixdə akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 15 sentyabrda başlamaqla tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 4 ildir.

Təhsil müddətində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara Hüquqşünaslıq ixtisası, "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

Seçmə komissiyasının vaxtı barədə ətraflı məlumatlar Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin *www.din.nmr.az* internet saytında, Polis Akademiyası haqqında ətraflı məlumatlar isə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin *www.mia.gov.az* və akademiyanın *www.pa.edu.az* internet saytlarında yerləşdiriləcəkdir.

# Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinə 2024-2025-ci tədris ili üçün kursant qəbuluna dair elan

Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi Orta İxtisas Polis Məktəbinə əyani təhsil üzrə kursant qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə – "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"nin və "Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin Nizamnaməsi"nin tələblərinə uyğun olaraq Azərbaycan dilini sərbəst bilən, tam orta təhsilli, boyu azı 175 santimetr yaşı 30-dan çox, 20-dən az olmayan və müddətli həqiqi hərbi xidmət keçmiş Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum edilmiş (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən şəxslər müsabiqəyə buraxılmırlar.

Sənədlərin qəbulu 2024-cü il yanvar ayının 22-dən mart ayının 3-dək bazar günləri istisna olmaqla hər gün saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Kadrlar şöbəsində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

*- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*- tam orta təhsil haqqında sənəd (attestatın əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*- yaşayış yeri üzrə tibb müəssisəsindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün sağlamlıq haqqında arayış;*

*- hərbi bilet (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*- əmək kitabçası (olanlar üçün);*

*- arayış (ailə tərkibi və yaşayış yeri haqqında, işləyənlər üçün isə əlavə olaraq iş yerlərindən);*

*- xasiyyətnamə (yaşayış və ya iş yerindən);*

*- nikah haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*- 9x12 santimetr ölçüdə 2 ədəd, 4x6 santimetr ölçüdə 4 ədəd fotoşəkil.*

İlkin sənədləri Orta İxtisas Polis Məktəbinə təhsilə uyğun gələn namizədlərə müvafiq formada ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunurlar.

Namizədlər Naxçıvan Qarnizonu Mərkəzi Hərbi-Həkim Komissiyasında müayinədən, habelə fiziki hazırlıq və seçmə komissiyalarında müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma – çəkisi 80 kiloqramadək olanlar üçün 10 dəfə, 80 kiloqramdan yuxarı olanlar üçün 8 dəfə; qaçış 100 metr məsafəyə 15 saniyə və 1000 metr məsafəyə 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması 20 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması 20 dəfə).

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və ya Naxçıvan Qarnizonu Mərkəzi Hərbi-Həkim komissiyalarından keçə bilməyən namizədlər müsabiqədən kənarlaşdırılır. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu vaxt namizədin komissiya sədrinə müraciəti olduqda baxılır.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı ixtisas seçimində iştirak etmək üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan dilində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir. Namizədlər bu məqsədlə həmin mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbində tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 2 ildir.

Təhsil müddəti ərzində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunurlar.

Məzunlara Hüquq-mühafizə fəaliyyəti ixtisası və "polis kiçik leytenantı" xüsusi rütbəsi verilir.

Seçmə komissiyalarının vaxtı və qəbulla bağlı digər məsələlər barədə ətraflı məlumatlar Daxili İşlər Nazirliyinin *www.din.nmr.az* internet saytında yerləşdiriləcəkdir.

***Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: (036) 545-08-10 (155, 156).***

## Naxçıvan idmançılarından ilin ilk titulu



Bakı Boks Mərkəzində yeniyetmə boksçular arasında Azərbaycan birinciliyi keçirilib. Yarışa rekord həddə iştirakçı – müxtəlif şəhər və rayonların klublarını, həmçinin idman cəmiyyətlərini təmsil edən 74 komandadan 408 boksçu qatılıb. Dekabrın 8-dən 14-dək davam edən birincilikdə 14 çəki dərəcəsi üzrə mükafatçılar müəyyənləşib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən Naxçıvan Boks Federasiyasının 1 hakimi, 2 məşqçisi və 10 idmançının yarışda iştirakı təmin edilib. Təmsilçilərimizdən yalnız biri mükafatçılar sırasına düşə bilib.

57 kiloqram çəki dərəcəsində çıxış edən Haqverdi Həsənov 1/16 final mərhələsindən mübarizəyə qoşulub. Dörd rəqibini məğlub etməklə finala maneəsiz irəliləyən idmançı həlledici görüşdə "Zabit" İdman Klubunu təmsil edən Mansur Xodjayevə rəqib olub. Gərgin və maraqlı mübarizədən 4:1 hesablı qalibiyyətlə ayrılan Haqverdi ölkə çempionu olub. Digər təmsilçimiz Ruhin Səfərov isə Azərbaycan birinciliyinin ən əzmkar boksçusu seçilib.

Xatırladaq ki, məşqçi Elnur Kərimlinin şagirdi Haqverdi Həsənov ötən il keçirilən məktəblilər arasında zona birinciliklərinin final mərhələsində ikinci olmuşdu.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan Televiziyası




# xəbərin mərkəzindədir

"Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Bakı bürosu fəaliyyətə başlayıb. Artıq doğma kanal bundan sonra paytaxt Bakı şəhərində və Azərbaycanın digər bölgələrində də baş verən hadisələrlə bağlı yerli tamaşaçılara operativ şəkildə məlumat verəcək, xəbərin mərkəzində olmaqla öz maraqlı süjet və verilişləri ilə tamaşaçılarının diqqətində olmağa davam edəcək. Baş verən aktual, maraqlı və önəmli hadisələri izləyicilərinə təqdim edən televiziya bu gün öz tamaşaçılarına növbəti süjetini təqdim etdi. Prezident cənab İlham Əliyevin tapşırığına uyğun olaraq Füzuli şəhərinə köç edən Füzuli sakinlərinin sevincini lentə alan televiziya kadrlarını izlədikcə qürur hissi keçirdik. "Şərq qapısı" kollektivi olaraq doğma televiziyamızın uğuruna ürəkdən sevinir, televiziyanın kollektivinə yeni yaradıcılıq uğurları arzu edirik. Tezliklə, doğma kanalımızda Bakını Naxçıvana birləşdirən dəmir yolundan görüntülər izləmək diləyilə…




**Gülcamal TAHİROVA**

# Elan

| | |
|---|---|
| Qurumun adı | "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsi |
| Ünvan | Naxçıvan şəhəri, Azərbaycan küçəsi 57 |
| Əlaqələndirici şəxs: | Günel Orucova (hüquqşünas)<br>(060) 220-91-10, (051) 653-66-44 |
| Struktur bölmə | İnzibati idarəetmə heyəti |
| Vəzifənin adı | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə mütəxəssis ( 1 yer) |
| Vəzifə funksiyaları | • Agentliyin fəaliyyətində informasiya şəffaflığının təmin edilməsi ilə bağlı qanunvericiliklə müəyyən edilmiş tədbirlərin həyata keçirilməsi;<br>• Agentliyin fəaliyyətinin əsas istiqamətləri, qəbul etdiyi mühüm qərarlar, rəsmi tədbirlər, müvafiq dövrləri əks etdirən nəticələr, fəaliyyətin təkmilləşdirilməsi ilə əlaqədar tətbiq edilən yeniliklər və sair barədə məlumatların media subyektləri, agentliyin internet saytı və sosial şəbəkələrdə yerləşdirilməsinin təşkil edilməsi;<br>• Agentlik və onun fəaliyyət sahəsi ilə bağlı media subyektlərinin mütəmadi izlənilməsi, müvafiq informasiyaların qruplaşdırılması, təhlili və rəhbərliyə arayışların təqdim edilməsi;<br>• Agentliyin internet saytının ictimai səmərəliliyinin inkişaf etdirilməsi məqsədilə saytda fəaliyyətin əhatəli əks olunması, yerləşdirilən informasiyaların məzmunu, əhatəliliyi və etibarlılığına nəzarət edilməsi;<br>• Agentliyin fəaliyyəti ilə bağlı mühüm əhəmiyyət kəsb edən məsələlərə dair ictimai fikrin öyrənilməsi məqsədilə sorğuların keçirilməsi, əldə edilən nəticələrin təhlili;<br>• Agentliyin sosial şəbəkə hesablarının idarə olunması və yaranan texniki problemlərin operativ şəkildə aradan qaldırılmasının təmin olunması;<br>• Agentliyin iclas və tədbirlərinin təşkil edilərək mediada işıqlandırılması; |
| Vəzifənin tutulma şərtləri | • Ali təhsil;<br>• Jurnalistika və ya ictimaiyyətlə əlaqədar sahələrdə 5 il və artıq iş təcrübəsi;<br>• Ofis proqramlarından sərbəst istifadə;<br>• İnternetdən sərbəst istifadə;<br>• İnternet saytının və sosial şəbəkələrin idarə edilməsi bacarığı;<br>• Yerli medianı yaxından tanımaq və aktiv əməkdaşlıq etmək;<br>• Ünsiyyət, təşkilatçılıq və idarəçilik bacarığı;<br>• Media haqqında qanun və digər qanunları bilmək;<br>• Naxçıvan şəhəri və ətrafı kəndlərdə yaşayan namizədlərə üstünlük veriləcək. |
| Təqdim ediləcək sənədlər | • İşlə təmin olunmaq üçün müraciət ərizəsi;<br>• Kadr uçotu sənədləri;<br>• Əmək kitabçasının üzü;<br>• Tərcümeyi-hal. |

Müsabiqədə iştirak etmək istəyən namizədlər sənədlərini bu elan dərc olunduğu gündən bir ay müddətində "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin ünvanına təqdim etməlidir.

## *İtmişdir*

Ordubad rayonunun Vənənd kənd sakini Hüseynov Məmmədbağır Nəsrullah oğluna məxsus JN-670[B] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Yengicə kənd sakini Əliyeva Bilurə Arif qızının adına olan 102013005649 nömrəli reyestr və çıxarış itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonunun Çalxanqala kəndində Əsədov Əli Cəfər oğlunun adına olan evin 23 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Qahab kənd sakini Məmmədov Allahverdi Ələsgər oğlunun adına verilmiş JN-490 nömrəli, 10306018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Culfa rayonunun Milax kənd sakini Əliyev Şahlar İsfəndiyar oğlunun adına JN-218[A], 262[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Nehrəm kənd sakini Əliquliyev Rəhim Cəfərqulu oğlunun adına 1999-cu il 27 sentyabr tarixdə verilmiş torpaq sahəsinin qaiməsi (sertifikat) itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Muğanlı kəndində yaşamış İbrahimov Qasım İbrahim oğlunun adına verilmiş JN-155 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Muğanlı kəndində yaşamış İbrahimov İbrahim Əyyub oğlunun adına verilmiş JN-194 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Çərçiboğan kənd sakini İbrahimov Amil Əliqulu oğlunun adına olan JN-758[B] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Mahmudkəndində yaşamış Hüseynov Nəsrəddin Şükür oğlunun adına olan JN-349 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 11